**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# QEYRİ-NEFT SEKTORUNDA İXRACIN ARTIRILMASI PROBLEMLƏRİ

İxtisas: **5312.01 - Sahə iqtisadiyyatı**

Elm sahəsi: **İqtisad elmləri**

İddiaçı: **Səbinə İzzət qızı Vəliyeva**

İqtisad elmləri doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Gəncə – 2022**

Dissertasiya işi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzində yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** iqtisad elmləri doktoru, professor, əməkdar elm xadmi,
**Bəyalı Xanalı oğlu Ataşov**

**Rəsmi opponentlər**: iqtisad elmləri doktoru, dosent
**Anar Fazil oğlu Abbasov**

iqtisad elmləri doktoru, professor
**İsa Hüseyn oğlu Alıyev**

iqtisad elmləri doktoru, professor
**Xatirə Mail qızı Hüseynova**

iqtisad elmləri doktoru, professor
**Qənimət Əsəd oğlu Səfərov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ____________ iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: ____________ iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Pərvin Elman qızı Muxtarova**

Elmi seminarın sədri: ____________ iqtisad elmləri doktoru, professor, Əməkdar kənd təsərrüfatı işçisi
**İslam Hacı oğlu İbrahimov**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan Respublikasında 2030-cu ilə kimi iqtisadiyyatın ikiqat artımının təmin edilməsi qarşıda duran başlıca strateji çağırışlardan biri elan edilmişdir. Xüsusilə postpandemiya dövründə iqtisadiyyatın illik artım sürətinin yüksəldilməsi üçün qeyri-neft ixracının genişləndirilməsinə əsaslanan milli inkişaf prioritetlərinin müəyyən edilməsi, qlobal dəyər zəncirinə fəal qoşulma kimi strateji vəzifələrin icrasının təmin olunması aktuallıq daşıyır. Birmənalı olaraq qeyd edə bilərik ki, Azərbaycanın yeni iqtisadi artım və inkişaf modelinə təmin edilməsində qeyri-neft sektoru müstəsna rol oynaycaqdır.

Son illər qeyri-neft sektorunun inkişafı və qeyri-neft ixracının artırlması daim ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci il 13 yanvar tarixində 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə "Qeyri-neft ixracının uzunmüddətli strategiyası işlənməlidir və həm bu strategiya mövcud olan bazarlarla bağlı olmalıdır, perspektiv bazarlara çıxışla bağlı işlər aparılmalıdır", - deyərək İqtisadiyyat Nazirliyinin bu sahədə Kənd Təsərrüfatı Nazirliyi ilə sıx əlaqədə iş aparmasının vacibliyini vurğulamışdır.

Prezidentin bu tapşırığı həm də ölkəmizdə qeyri neft-qaz ixracının artırlmasında aqrar sahə məhsullarının oynadığı rolla bağlı yeni araşdırmaların aparılmasını şərtləndirmişdir. Bir faktı qeyd edək ki, hətta 2020-ci ildə Azərbaycanda qeyri-neft ixracının azalmasına baxmayaraq, kənd təsərrüfatı məhsulları ixracında artım surəti qorunub saxlanılmışdır. Ümumiyyətlə təhlillərimiz göstərmişdir ki, 2011-ci illə müqayisədə 2020-ci ildə Azərbaycanın qeyri-neft ixracı 22 faiz artmışdır. Bu müddətədə kənd təsərrüfatı ixracı isə 3 dəfə artmışdır. Maraqlı nüanslardan biri ondan ibarətdir ki, 2011-ci illə müqayisədə 2020-ci ildə adambaşına qeyri neft-qaz ixracı 11 faiz artaraq 183 ABŞ dolları təşkil etmişir. Bu müddətə adambaşına kənd təsərrüfatı ixracı isə 2,7 dəfə artmışdır. Yəni, 2011-ci ildə adambaşına kənd təsərrüfatı ixracı 28 ABŞ dolları olduğu halda, 2020-ci ildə 75 ABŞ dollarına yüksəlmişdir. 2021-ci ildə qeyri neft-qaz ixracında daha böyük uğura imza atılmışdır. 2020-ci illə müqayisədə 2021-ci ildə qeyr-neft ixracımız 47,2 faiz artaraq 2,7 milyard ABŞ dolları təşkil etmişdir. Nəticədə

adambaşına qeyri neft-qaz ixracı 270 ABŞ dollarına yaxınlaşmışdır. 2021-ci ildə kənd təsərrüfatı məhsullarının ixrac isə 15,1 faiz artaraq 877,2 milyon ABŞ dolları olmuşdur.

Həmçinin 2011-ci ildə qeyri-neft ixracının 17 faizini kənd təsərrüfatı məhsulları təşkil edirdisə, 2020-ci ildə bu göstərici 41 faiz olmuşdur. Burada diqqət çəkən nüanslardadan biri isə öndan ibarətdir ki, ixracda önə çıxan kənd təsərrüfatı məhsulları ilə (pomidor, fındıq ləpəsi, xurma, pambıq mahlıcı və s.) özünütəminat yüksək səviyyədədir və bu məhsulların ixracının artması daxili bazarda qiymətlə bağlı problem yaratmır. Hesablamalarımz göstərir ki, qarşıdakı illərdə kənd təsərrüfat məhsullarının ixracını artırmaq üçün böyük potensial mövcuddur. Nəzərə alaq ki, 2016-cı il 06 dekabr tarixində təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə qeyri-neft sektoru üzrə adambaşına düşən ixracın 2025-ci ilədək ən azı 450 ABŞ dollarına çatdırılması hədəflənmişdir. Həmçinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri" adlı sənəddə də 2025-ci ilə Azərbaycan iqtisadiyyatı üzrə 8 prioritet sektor təsbit edilmiş və bu sektorlardan biri də kənd təsərrüfatıdır.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli koronavirus pandemiyasının mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlərlə bağlı Sərəncamının icrasını təmin etmək üçün Nazirlər Kabineti tərəfindən təsdiqlənən Tədbirlər Planında kənd təsərrüfatı və emal sənayesi prioritet sektor seçilmişdir. Yuxarıda qeyd edilənlər isə onu göstərir ki, Azərbaycanda çoxsahəli kənd təsərrüfatının formalaşdırılması və inkişaf etdirilməsi sahəsində respublikanın təbii - iqlim şəraitinin yaratdığı imkanların reallaşdırılması istiqamətində başlanan fəaliyyət dərinləşdirilməlidir. Maliyyə proqramlaşdırılması modeli vasitəsiylə apardığımız hesablamalar və verdiyimiz proqnozlar da onu göstərir ki, 2030-cu ilə kimi olan müddətdə neft hasilatının azalması fonunda qeyri-neft sektorunun inkişafı Azərbaycan üçün müstəsna əhəmiyyətə malik olacaqdır. Yəni, Azərbaycanda qeyri-neft sektorunun inkişafı, xüsusən də postpandemiya dövründə aqrar sahədə ixracın artırılması istiqamətində təxirəsalınmaz tədbirlərin görülməsinə zərurət yaranacaqdır. Bu isə bir daha aqrar sahə məhsullarının ixracının artırılması problemlərinin aktuallığına dəlalət edir və bu istiqamətdə

əhatəli tədqiqatların aparılmasının zəruriliyini göstərir. Bu baxımdan yerinə yetirilən dissertasiya işi aqrar sektorda ixracın artırılması ilə bağlı elmi-təcrübi əhəmiyyət kəsb edən yeni elmi problemin həllinin təmin olunmasına xidmət edir.

Bizim tədqiqatın mühüm hissəsi sahə üzrə ədəbiyyatın dərindən araşdırılması və müqayisəli təhlili və elmi cəhətdən əsaslandırılmış nəticələrin əldə edilməsi və təkliflər hazırlamaqdan ibarət olmuşdur. Ölkəmizdə aqrar sahədə ixracın artırılmasının iqtisadi problemlərinə mütəmadi olaraq müraciət edilmişdir. Bir çox tədqiqatçıların, o cümlədən Azərbaycan iqtisadçı alimlərinin problemə müxtəlif istiqamətlərdən yanaşmaları və əldə etdikləri əsas nəticələr problemin həllində mühüm addımlar hesab edilə bilər. Belə ki, aqrar sahənin inkişafının və aqrar ixracın artırılmasının nəzəri-metodoloji və təcrübi aspektləri Səmədzadə Z.Ə. [92], Quliyev E.A. [85], İbrahimov E.R. [76], Ataşov B.X. [52], Salahov S.V. [90], Hüseynov M.C. [68], Alıyev İ.H. [53], Xəlilov H.A. [73], Balayev R.Ə. [55], Abbasov V.H. [51], Abbasov A.F. [50], Əliyev Ş.T. [60], Gənciyev G.Ə. [66], İbrahimov İ.H. [80], Qasımlı V.Ə. [82], Şəkərəliyev A.Ş. [95], Kərimli İ.A. [81], Qənbərov F.Ə. [83], Hüseyn R.Z. [69], Fikrətzadə F.F. [61], Vəliyev A.H. [97] və bir çox Azərbaycan iqtisadçı alimləri tərəfindən tədqiq edilmişdir. Həmçinin klassiklər A.Smit, D.Rikardo, M.Portet [141] və s. daxil olmaqla xarici alimlərin - B.Balassa [115], M.Bruno, S.Davidova [129], P.Krugman, M.Gorton [129], Michael L.Morris [142], L.Latruffe [135], J.Markusen [139] və digərlərinin bu istiqamətdə sanballı araşdırmaları olmuşdur.

Qeyd olunanlarla yanaşı, respublikamızda aqrar sahə məhsulları ixracının artırılması ilə bağlı təqdqiqatlar aparılsa da, xüsusən postpandemiya dövründə aqrar ixracın artırılması problemlərinin kompleks araşdırılması ayrılıqda tədqiqat obyekti olmamışdır. Adlarını qeyd etdiyimiz tədqiqatçılar qloballaşan inkişaf və postpandemiya dövründə aqrar sahə məhsullarının ixracının artırılması problemlərini məxsusi olaraq araşdırmağı qarşılarına məqsəd qoymamışlar. Məhz bizim tədqiqat yeni iqtisadi münasibətlər dövründə bilavasitə aqrar sahə məhsullarının ixracının artırılması şərait və meyllərinə, onun iqtisadi mexanizmlərinə həsr olunmuşdur.

**Tədqiqat obyekti kimi** Azərbaycan Respublikasında mülkiyyət formasından asılı olmayaraq fəaliyyət göstərən aqrar sahə məhsullarının ixracı ilə məşgul olan bütün kateqoriya təsərrüfatlar, təşkilat və müəssisələr götürülmüşdür.

**Tədqiqatın predmetini** isə qeyri-neft ixracında mühüm paya sahib olan aqrar sahə məhsullarının ixracının artırılmasını şərtləndirən amillər, ixracının artırılması üçün tənzimləmə və təkmilləşdirməyə istiqamətləndirilən təşkilati-iqtisadi münasibətlər təşkil edir.

**Tədqiqatın məqsədi və vəzifələri**. Tədqiqat işinin məqsədi qloballaşma şəraitində Azərbaycan Respublikasının aqrar sahə məhsullarının ixracının artırılması amillərini və ixrac olunan kənd təsərrüfatı məhsulları üzrə mövcud durumu və rəqabət üstünlüyünü qiymətləndirmək, onların formalaşması amillərini aşkar etmək, mövcud potensialdan səmərəli istifadə edilməsinə və ixracın artırılması istiqamətlərinə, mexanizmlərin təkmilləşdirilməsinə dair elmi cəhətdən əsaslandırılmış təkliflər hazırlamaqdan ibarətdir. Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- Ölkədə aqrar sahə məhsullarının ixracının artırılmasının və dəstəklənməsinin nəzəri-metodoloji aspektlərinin araşdırılması;
- Qloballaşmanın tələbləri nəzərə alınmaqla və inteqrasiya şəraitində aqrar sahə məhsullarının ixracının artırılmasının milli iqtisadiyyatın inkişafına təsirini araşdırmaq;
- ÜTT-yə üzvülüyün aqrar sahə məhsullarının ixracına təsirinin qiymətləndirilməsi;
- Aqrar sahə məhsulları istehsalı üzrə müqayisəli üstünlüklərin xüsusiyyətlərinin müəyyənləşdirilməsi və reallaşdırılması mexanizmlərinin araşdırılması;
- Azərbaycan Respublikasının aqrar ixracı ilə bağlı müqayisəli üstünlüklərin və rəqabət üstünlüyünün müəyyənləşdirilməsi və bu üstünlüklərdən istifadə sahəsində müasir vəziyyətin kompleks şəkildə qiymətləndirilməsi;
- Azərbaycan Respublikasında, o cümlədən işğaldan azad edilmiş ərazilərdə ixracyönümlü aqrar sahə məhsulları istehsalının inkişaf istiqamətlərinin müəyyən edilməsi;
- Ərzaq məhsulları ixracının artmasının ölkənin ərzaq təhlükəsizliyinə təsirinin qiymətləndirilməsi;

- Qloballaşmanın tələbləri nəzərə alınmaqla kənd təsərrüfatı məhsulları üzrə ixracın genişləndirilməsi və səmərəliliyinin yüksəldilməsi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilməsi;
- İxrac məhsullarının bazarlara çatdırılması ilə bağlı müasir nəqliyyat-logistika sisteminin inkişaf istiqamətlərinin araşdırılması;
- Azərbaycanın aqrar ixrac potensialının reallaşdırılması ilə bağlı proqnozların işlənib hazırlanması, post-pandemiya dövründə ixracyönlü aqrar-sənaye məhsulları üzrə istehsal potensialının yüksəldilməsi istiqamətlərinin müəyyən edilməsi;
- İxracyönümlü inkişaf modeli əsasa alınmaqla kənd təsərrüfatının kompleks inkişaf etdirilməsi üçün təklif və tövsiyələrin verilməsi.

**Tədqiqat metodları.** Tədqiqat prosesində monoqrafik, iqtisadi-statistik, balans, məqsədli-proqram, riyazi model və digər üsullar tətbiq olunmuşdur.

Nəzəri əsas kimi ölkəmizin və xarici iqtisadçı alimlərinin aqrar sahə məhsullarının ixracının artırılması problemlərinə həsr olunmuş əsərləri, Azərbaycan Respublikasının ali qanunvericilik və icra orqanlarının qanun, qərar, fərman, sərəncam və normativ sənədləri götürülmüşdür. Dissertasiya işində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Kənd Təsərrüfatı, İqtisadiyyat, Maliyyə və digər nazirliklərin, istehsal, emal və xidmət müəssisə və təşkilatlarının, müvafiq icra qurumlarının məlumatlarından və Aqrar Tədqiqatlar Mərkəzinin araşdırmalarından, xüsusi müayinə materiallarından istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində aqrar sahədə istehsal olunan məhsulların ixracının artırılmasının zəruriliyini əks etdirən aşağıdakı müddəalar müdafiəyə çıxarılır:

- Aqrar sahə məhsullarının ixracının artırılmasının milli iqtisadiyyatın inkişafına təsirini, bu sahədə strateji hədəflərinin tədqiqi və onların inkişaf meyllərinin, inkişaf problemlərinin müəyyənləşdirilməsi;
- Aqrar sahə məhsulları ixracının artırılmasının ərzaq təhlükəsizliyi siyasətli ilə əlaqəsinin müəyyənləşdirilməsi, idxalı əvəzetmə və ixracı genişləndirmə üzrə qlobal qabaqcıl strategiyaların təhlilinin aparılması və bu sahədə modellərinin qurulması;
- Azərbaycanın aqrar məhsulların ixracı üzrə strateji təhlil və qiymətləndirilmənin aparılması ilə ixracyönümlü kənd təsərrüfatı

məhsullarının müqayisəli üstünlüklərinin müəyyənləşdirilməsi, meyarlarının və modellərinin işlənilməsi;

- Elektron ticarət texnologiyalarının ölkədə inkişafı problemlərinin müəyyənləşdirilməsi və onların həlli istiqamətlərinin işlənilməsi;

- Aqrar sahə üzrə ixracın artırılmasında işğaldan azad olunmuş ərazilərin (Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları) potensialından istifadə və problemlərinin həlli istiqamətlərinin işlənilməsi;

- Azərbaycanın aqrar sənaye məhsullarının dəyər zəncirləri boyunca və klasterlər əsasında inkişaf etdirilməsi imkanlarının müəyyənləşdirilməsi;

- İxracyönümlü kənd təsərrüfatı məhsullarının istehsalı və ixracı üzrə təşviq mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması;

- Aqrar sahədə innovativ maliyyə xidmətləri çeşidinin genişləndirilməsi və onun ixracın gücləndirilməsindəki rolunun artırılması istiqamətlərin işlənilməsi;

- Postpandemiya dövründə ixracyönlü aqrar-sənaye məhsulları üzrə istehsal potensialının yüksəldilməsi istiqamətlərinin müəyyənləşdirilməsi, proqnozların və inkişaf üzrə tövsiyələrin işlənilməsi.

**Tədqiqatın elmi yeniliyi**. Təqdim edilən dissertasiya işi Azərbaycanda aqrar məhsulların ixracının artırılması istiqamətlərinə dair kompleks araşdırılmasına həsr edilən əsərlərdəndir. Tədqiqat nəticəsində əldə edilmiş elmi yeniliklərə aşağıdakılar aiddir:

– İxracla, o cümlədən qeyri-neft ixracı ilə bağlı nəzəri baxışlar təhlil edilmiş, elektron ticarətin formalaşması, müqayisəli üstünlüklərin və rəqabət üstünlüyü nəzəriyyələri də nəzərə alınmaqla müvafiq ümumiləşdirmələr aparılmışdır;

– Azərbaycan Respublikasının metodoloji yanaşmalar təhlil edilmiş, aqrar sahədə ixraca təsir edən amillər müəyyənləşdirilmişdir;

– Dördüncü sənaye inqilabının çağırışlarına uyğun qeyri-neft sektorun məhsullarının ixracının artırılmasının milli iqtisadiyyatın inkişafına təsiri qiymətləndirilmiş, elektron ticarət və rəqəmsal ticarətin formalaşması və pospandemiya dövründə ixracın artırılması istiqamətləri işlənmişdir;

– Ölkənin kənd təsərrüfatı məhsullarının istehsalı üzrə müasir vəziyyət kompleks şəkildə qiymətləndirilmiş və mövcud potensialdan səmərəli istifadə ilə bağlı təkliflər irəli sürülmüşdür;

– Ekoloji təmiz məhsullar və ixracda ənənəvi olmayan aqrar sahə məhsulları üzrə ixracın artırılması imkanları aşkara çıxarılmışdır;

– Aqrar sahədə ixracyönlü məhsullarının sertifikatlaşdırılmasının mövcud vəziyyəti təhlil edilmiş, bu zaman ixraca mənfi təsir göstərən amillər və onları şərtləndirən mühit səciyyələndirilmişdir;

– Aqrar sahə üzrə ixracın artırılmasında işğaldan azad olunmuş ərazilərin (Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları) potensialından istifadənin perspektiv istiqamətləri müəyyənləşdirilmişdir;

– Respublikamızda ixrac məhsullarının bazarlara çatdırılması ilə bağlı müasir nəqliyyat-logistika sisteminin imkanları elmi əsaslarla təhlil edilmiş və bu sahədə prioritet istiqamətləri aşkarlanmışdır;

– Aqrar sənaye məhsullarının dəyər zəncirləri boyunca və klasterlər əsasında inkişaf etdirilməsi imkanları müəyyənləşdirilmişdir;

– Aqrar sahədə ixracın genişləndirilməsinə təsir göstərən maliyyə xidmətlərinin çeşidinin artırılması ilə bağlı təkliflər işlənmişdir;

– Postpandemiya dövrü üçün proqnozlar işlənmiş, ixracyönlü aqrar-sənaye məhsulları üzrə istehsal potensialının reallaşdırılması ilə bağlı bir sıra mühüm təkliflər verilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** İşdə xülasə edilən elmi-nəzəri müddəalar və təcrübi tövsiyələr aqrar sahə məhsullarının ixracının artırılmasını şərtləndirən və ona əngəl törədən amillərin təsirini qiymətləndirmək və iqtisadi tənzimləmə mexanizmlərindən istifadə etməklə qeyri-neft sektoru üzrə ixracın artırılması problemlərinin həllini əhəmiyyətli dərəcədə sürətləndirmək imkanına malikdir. Təcrübi tövsiyələr və perspektiv parametrlər aqrar sahə məhsullarının ixracının artırılması məsələlərinin təcrübi baxımdan həllində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusu üzrə iddiaçının 28 məqalə və tezis yerli və xarici jurnallarda çap olunmuşdur. İddiaçının 8 məqaləsi və 2 tezisi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu xarici jurnallarda və konfrans materialalrında dərc edilmişdir.

Tədqiqatın əsas nəzəri müddəalar və əldə edilmiş nəticələr 2015-2021-ci illərdə beynəlxalq və respublika səviyyələrində keçirilmiş simpozium, konfrans və seminarlarda məruzə edilmişdir. Bu sırada Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş beynəlxalq elmi-praktik konfransın materiallarında (Bakı.1-2 iyun 2018), AMEA İqtisadiyyat İnstitutunun 60 illik yubileyinə həsr olunmuş mövzusunda beynəlxalq elmi-praktik konfransın materiallarında (Bakı, 18 oktyabr 2018), Azərbaycan Texniki Universitetin keçirdiyi I beynəlxalq elmi-praktik konfransın materiallarında (18-20 dekabr 2019), "Kənd təsərrüfatının dayanıqlı inkişafı: qlobal çağırışlar və Azərbaycanda həyata keçirilən islahatlar" adlı elmi-praktiki konfrans materiallarında (15 dekabr 2020-ci il), Rusiya Federasiyasında keçirilən beynəlxalq konfrans materiallarında (Научный форум: экономика и менеджмент. Сборник статей по материалам LI международной научно-практической конференции -Москва. 2021) çap olunmuş tezislər vardır.

Bundan əlavə, iddiaçının "Проблемы регулирования использования экспортного потенциала Азербайджана в ненефтяном секторе", "Ненефтяной сектор как фактор экономического развития Азербайджана", "Пути улучшения финансового обеспечения производителей аграрного сектора", "Assessment of agricultural sustainability", "Текущее состояние экспорта хлопка и хлопковый продукции и перспективы ее развития", "Non-oil export challenges of oil countries in case of Azerbaijan", "Исторические особенности и актуальные проблемы повышения экспортного потенциала Азербайджана" adlı məqalələri nüfuzlu xarici jurnallarda dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat Azərbaycan Respublikası Kənd Təsərrüfat Nazirliyinin tabeliyindəki olan Aqrar Tədqiqatlar Mərkəzində yerinə yetirilmişdir. Tədqiqat dövründə dissertasiya işinin mövzusu Aqrar Tədqiqiatlar Mərkəzinin elmi-tədqiqat işlərinin ümumi istiqamətinə uyğun olmuşdur və AMEA Rəyasət Heyəti Nəzdində İqtisadiyyat üzrə Əlaqələndirmə Şurasında təsdiqlənmişdir (20 noyabr 2018-ci il, protokol №6).

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya işi cəmi 454 596 işarəsi olan 284 səhifədən, o cümlədən, beş fəsildən və 18 paraqrafdan,

giriş, nəticə, həmçinin ixtisarların və şərti işarələrin siyahısından ibarətdir (47 cədvəl, 52 qrafik, 2 şəkil və 223 istinaddan ibarət ədəbiyyat siyahısı). Birinci fəsil 34 səhifədən (61411 işarə), ikinci fəsil 41 səhifədən (64012 işarə), üçüncü fəsil 54 səhifədən (74074 işarə), dördüncü fəsil 42 səhifədən (74874 işarə), beşinci fəsil 70 səhifədən (112006 işarə) ibarətdir. Dissertasiya işinin həcmi (ədəbiyyat siyahısı və əlavələr istisna olmaqla) 420 885 işarədən ibarətdir.

## DİSSERTASİYA İŞİNİN QISA İCMALI

**Dissertasiyanın giriş hissəsində** mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, onun nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, işin ümumi həcmi barədə geniş şərh verilmişdir.

**"Qeyri-neft sektorunda ixracın nəzəri və metodoloji əsasları" adlanan birinci fəsildə** ixraca dair elmi baxışlar araşdırılmış, qeyri-neft sektoru məhsulları ixracının artırılmasına dair metodoloji yanaşmalar tədqiq olunmuş və aqrar sahə məhsullarının ixracının artırılmasının milli iqtisadiyyatın inkişafına təsiri müəyyənləşdirilmişdir.

Xarici iqtisadi fəaliyyətin ilkin forması kimi ticarətin meydana gəlməsi və inkişaf etməsi uzun tarixi yol keçmişdir. Bəşər cəmiyyətinin ilkin mərhələlərində insanlar yalnız fərdi tələbatlarını ödəməyə çalışdıqları halda, ibtidai icma quruluşunda artıq icma maraqları önə çəkilməyə başlamışdır. Quldarlıq dövründə əmtəə istehsalı, mübadilə və xarici ticarət yalnız rüşeym halında idisə, natural təsərrüfatın hökmran olduğu feodalizmdə əmtəə istehsalının genişlənməsinə şərait yaranmışdır. Kapitalizm də isə ticarət əlaqələri sürətli inkişafı ilə xarakterizə olunur. Azərbaycan Respublikasının ərazisində də tarixən quru və dəniz yolları ilə Avropanın, Yaxın və Uzaq Şərqin bir sıra ölkələri ilə ticarət edilirdi. Tarixi mənbələrdən də bildiyimiz kimi ölkəmızdən xarici bazarlara ipəkdən, yundan və pambıqdan toxunmuş parçalar, paltarlar, quru meyvə, zəfəran, düyü, neft, balıq, mis və saxsı qablar, boyaq və başqa mallar ixrac olunmuşdur. Ticarətin inkişaf etməsi ilə bağlı fərqli mövqelərdə dayanan iqtisadçı alimlərin irəli sürdüyü fikirlərə, onların kənd təsərrüfatı ticarətinə yanaşmasına birinci fəsildə

kifayət qədər yer verilmiş, günümüzə qədər ixraca dair elmi baxışların keçdiyi təkamül yoluna nəzər salınmışdır.

Nəzəriyyələr iqtisadçılara, hökumətlərə və müəssisələrə beynəlxalq ticarəti və onu necə təşviq etmək, tənzimləmək və idarə etmək lazım olduğunu daha yaxşı başa düşməyə kömək etsələr də, bəzi hallarda yeni yaranmaqda olan yeni trendlərlə ziddiyyət təşkil edirlər. Ölkələrin bir çox istehsal və ya xidmət sahələrində mütləq üstünlükləri yoxdur və əslində istehsal amilləri ölkələr arasında düzgün şəkildə bölüşdürülməmişdir. Lakin yeni yaranan rəqəmsal ticarət platformaları mal və xidmətlərin həm istehsal, həm də istehlak paradiqmalarını dəyişməkdədir. Belə ki, rəqəmsal vasitələr şirkətlərə potensial hədəf bazarlarında öz məhsullarına olan tələbi təhlil etməyə və müştəri potensialını qiymətləndirməyə və hətta onlayn marketinq və elektron ticarət satışlarına kömək etməyə qadirdir. Hazırda ekspertlər dünyada milyonlarla insanın onlayn platformalar üzərindən ticarət etdiyini və məhz bu səbəbdən rəqəmsal transformasiyaya keçidin zəruriliyini vurğulayırlar. Daha geniş miqyasda texnologiya əsaslı platformalar indidən tələb iqtisadiyyatını (bəziləri paylaşma iqtisadiyyatı da adlandırır) reallaşdırmağa imkan verir.

Bu fəsildə qeyri-neft sektoru məhsulları ixracının artırılmasına metodoloji yanaşmalara yer ayrılmış, işdə Aşkar Müqayisəli Üstünlüklər, İxrac Bazar Payları, Xalis İxracat İndeksi, Nisbi İdxal Üstünlüyü, Nisbi İxrac Üstünlüyü, Daxili Resurs Xərci kimi metodlardan faydalanılmış, lokallaşma əmsallı hesablanmışdır.

Dünya Bankının məlumatlarına əsasən Azərbaycan üzrə Herfindahl-Hirşman Bazar Təmərkizləşmə İndeksi (HHBTİ) hesablanmışdır. Qeyd edək ki, Dünya Bankının məlumatlarına əsasən 2011-2015 illər ərzində dünya üzrə orta HHBTİ 0.04-ə bərabər olmuşdur. Azərbaycanın qeydə alınmış müvafiq göstəriciləri üzrə hesablamalar isə qeyd olunan müddətdə orta HHBTİ göstəricisinin 0,12 olduğunu göstərir. Bu isə ticarət parnyorları üzrə diversifikasiyanın ümumdünya orta göstəricisindən yuxarı, yəni nisbətən zəif diversifikasiya olunması deməkdir.[1]

[1] https://wits.worldbank.org/CountryProfile/en/Country/AZE

İqtisadiyyatın diversifikasiya qabiliyyətini ölçən və dolayısı ilə də ixrac diversifikasiyası üzrə potensialını qiymətləndirən metodologiyalardan biri də "İqisadiyyatın kompleksliliyi (və ya çoxşaxəliliyi) İndeksidir". Azərbaycan indeks üzrə dünya miqyasında 2010-cu ildə 99-cu mövqedə idisə, 2019-cu ildə bu mövqe 90-cı olmuşdur. 2019-cu ildə ixrac göstəricisinə görə Azərbaycan dünya miqyasında 74, ümumi idxal göstəricisinə görə isə 88-ci mövqedə olmuşdur. Lakin müvafiq hesabatın nəticələrinə əsasın ümumilikdə 19 il ərzində ölkə iqtisadiyyatı çoxşaxəlilik üzrə öz mövqeyini xeyli itirmişdir (40-cı pillədən 90-cı pilləyə kimi geriləməklə). İxrac göstəricilərinə görəs isə dünya miqyasında Azərbaycan 2019-cu ildə 74-cü yerdə qərarlaşmışdır ki, bu da ötən illərin göstəricilərindən aşağıdır (2014-cü ildə 70-ci yer)[2].

Xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir. Yalnız 2020-ci il ərzində xarici iqtisadi fəaliyyətlə bağlı dövlət büdcəsinə 1160,6 milyon manat vergi ödənilmişdir ki, bu da dövlət büdcəsi gəlirlərinin (26075,4 milyon manat) 4,5 faizini təşkil etmişdir. Həmçinin, kənd təsərrüfatı sektorunun Azərbaycanın ixrac imkanları baxımından da mühüm əhəmiyyəti vardır.

İşdə aqrar sahənin məhsullarının ixracının artırılmasının milli iqtisadiyyatın inkişafına təsiri geniş şəkildə araşdırlmış, kənd təsərrüfatının iqtisadiyyatdakı rolu ilə bağlı təhlillər aparılmışdır. Azərbaycanda aqrar sahənin ölkənin qeyri-neft ixracının yüksəldilməsində rolu son illərdə daha da artmışdır. Bununla yanaşı, ÜDM-in 6 faizin təşkil etməsinə baxmayaraq, kənd təsərrüfatı ölkədə məşğulluğun ən böyük hissəsini (36 faiz) təmin edir. Baxmayaraq ki, aqrar sektor Azərbaycanın qlobal dəyər zəncirlərində iştirak etməsi üçün əsas sahələrdən hesab olunur, aparılmış təhlillər onu göstərir ki, Azərbaycanın aqrar ixrac göstəriciləri potensial imkanlardan xeyli aşağıdır. Bu isə həm də kiçik və orta sahibkarlığın, eyni zamanda kiçik fermer təsərrüfatlarının istehsal və emal proseslərində zəif iştirakı ilə bağlıdır. Ölkədə aqrar sektorun istənilən səviyyədə inkişaf etməməsi müasir istehsal vasitələrinin çatışmazlığı və təhsilli fermerlərin azlığı ilə də bağlıdır. Buna görə də, Belarus və Rusiya kimi keçmiş sovet ölkələri ilə müqayisədə

[2] https://oec.world/en/profile/country/aze

Azərbaycanda aqrar məhsuldarlıq aşağıdır. Digər tərəfdən, aparılmış araşdırmalar Azərbaycanın bir sıra aqrar məhsullarının Rusiya və Avropa bazarlarında müqayisəli üstünlüyə malik olduğunu göstərmişdir. Əlbəttə ki, aqrar istehsal və ixrac imkanlarının genişlənməsi milli iqtisadiyyatın digər sektorlarına da müsbət təsir göstərir.

Koronavirus pandemiyasının təsiri ilə 2020-ci ildə Azərbaycan iqtisadiyyatında 4,3 faizlik gerilimə müşahidə olunsada kənd təsərrüfatı sektorunda 2 faizlik artım qeyd alınmışdır. 2021-ci ildədə kənd təsərrüaftı sektorunda artım dinamikası qurunub saxlanılmışdır. Belə ki, 2020-ci illə müqayisədə 2021-ci il ərzində kənd təsərrüfatı məhsullarının istehsalı 3,4 faiz artmışdır. 2021-ci ildə kənd təsərrüfatı, meşə və balıqçılıq sahəsində yaradılan əlavə dəyərin ÜDM-də payı 5,9 faiz olmuşdur. Ümumiyyətlə, kənd təsərrüfatı sektorunun Azərbaycan iqtisadiyyatında rolu geniş və çox cəhətlidir.

**Cədvəl 1. Azərbaycandan 2020-2021-ci illər ərzində ixrac edilən bəzi kənd təsərrüfatı məhsulları[3]**

| Malın kodu | Malın adı | 2020 | | 2021 | |
|---|---|---|---|---|---|
| | | Məbləği (min ABŞ dolları) | Qeyri-neft ixracında xüsusi çəkisi, % | Məbləği (min ABŞ dolları) | Qeyri-neft ixracında xüsusi çəkisi, % |
| 070190 | Kartof, təzə və ya soyudulmuş, digərləri | 33785 | 1,8 | 40077,7 | 1,5 |
| 070200 | Tomat, təzə və ya soyudulmuş | 201353,53 | 10,9 | 160228,8 | 5,9 |
| 080222 | Qabığı təmizlənmiş meşə fındığı | 113588,07 | 6,1 | 108754,6 | 4 |
| 080810 | Alma, təzə | 29500,86 | 1,6 | 37364,4 | 1,38 |
| 080929 | Təzə albalı və gilas, digərləri | 48615,83 | 2,6 | 31076,4 | 1,1 |
| 081070 | Xurma, təzə | 91586,68 | 4,9 | 125895 | 4,6 |
| 081090 | Sair təzə meyvələr (nar və s.) | 36739,85 | 2,0 | 29253,67 | 1,1 |
| 520100 | Pambıq lifi, daranmaya məruz qalmamış | 131930,21 | 7,1 | 207979,96 | 7,7 |

3 Cədvəl Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.

Ölkənin qeyri-neft ixracının strukturunda da kənd təsərrüfatının rolu mühüm əhəmiyyətə malikdir. Doğrudur, ixracda bitkiçilik məhsulları heyvandarlıq məhsulları ilə müqayisədə daha çox önə çıxırlar. Aşağıdakı cədvəldən də göründüyü kimi, 2020-ci il ərzində qeyri-neft ixracında 1 faizdən yüksək paya malik olan aqrar məhsulların sırasında hər hansı heyvandarlıq məhsulu mövcud olmamışdır.

Fikrimizcə, əgər ölkənin iqtisadi və ərzaq təhlükəsizliyi üçün xüsusi təhdid formalaşdırmırsa, rəqabət üstünlüyü olmayan sahələrin dəstəklənməsi və vəsaitlərin sərf olunması əvəzinə rəqabət üstünlüyü olan aqrar sahələri dəstəkləməklə resursların daha səmərəli istifadə edilməsi və faydalılığın maksimallaşdırılması mümkündür. Təhlil onu göstərir ki, milli iqtisadiyyatın inkişaf etdirilməsi baxımından bitkiçilik sektorunun istehsalı və ixracının prioritetləşdirilməsi daha mühüm əhəmiyyət kəsb edir. Heyvandarlıq məhsullarından fərqli olaraq bitkiçilik məhsulları qeyri-neft ixracında yüksək xüsusi çəkiyə malik olmaqla milli iqtisadiyyatın gəlir mənbələrinin formalaşdırılması, ölkəyə xarici valyutanın daxil olması və beləcə makroiqtisadi sabitliyinin qorunub saxlanılmasında müstəsna əhəmiyyətə malikdir.

**“Aqrar sahədə ixracın artırılması şəraiti və amilləri” adlanan ikinci fəsildə** beynəlxalq iqtisadi təşkilatlara inteqrasiyanın aqrar sahə məhsullarının ixracına təsiri müəyyənləşdirilmiş, aqrar sahə məhsulları ixracının artırılmasının ərzaq təhlükəsizliyi siyasəti ilə əlaqələri araşdırılmış, idxalı əvəzetmə və ixracı genişləndirmə üzrə strategiyalar təhlil edilmişdir. Azərbaycan Respublikası Avrasiya İqtisadi Birliyi ilə həmsərhəddir və əsas kənd təsərrüfatı məhsullarının ixracı da bu birliyin üzvü olan Rusiya Ferderasiyasına reallaşdırılır. Lakin Azərbaycan Avrasiya İqtisadi Birliyinin üzvü deyil. 1997-ci il tarixindən etibarən Azərbaycan ÜTT-yə daxilolmaq üçün danışıqlar aparır. Qeyd edək ki, ÜTT Ticarət və Tariflər üzrə Baş Sazişin (GATT) və onun davamı olan Uruqvay Raundunun bazasında 1995-ci il 1 yanvar tarixində yaradılmışdır. Bu qurum öz sıralarında dünya ticarətinin 98 faizindən çoxunu əhatə edən 164 ölkəni əhatə edir. 2021-ci ilə olan məlumata 23 ölkə təşkilata üzv qəbul olunmaq üçün rəsmi müraciətlə çıxış etmişdir. Təşkilat dövlətlərarası ticarətin qlobal səviyyədə qaydalarını müəyyən edən vahid beynəlxalq təşkilat statusuna malikdir.

Azərbaycanın bu təşkilata mərhələlərində postsovet respublikalarının təcrübəsindən yararlanması vacibdir. Rəsmi məlumatların təhlili göstərir ki, Azərbaycanın ÜTT-yəüzvlük prosesində bir sıra mühüm çağırış və risklər mövcuddur. ÜTT-yə üzvlük məsələsi indinin özündə ixrac təşviqi siyasətinin hansı formada davam etdirilməsi üzrə strateji qərarların verilməsini tələb edir.

İxrac olunan qeyri-neft məhsullarının Azərbaycan Respublikasının ərazisində istehsal olunan və istehsal prosesində istifadə edilən yerli komponentlərin və respublikanın ərazisində yaradılan qeyri-neft məhsullarının dəyərinin xüsusi çəkisi mənşə sertifikatı əsasında müəyyən olunur. İxrac təşviqi ancaq Azərbaycan mənşəli mallara şamil edilmişdir. Qeyd edək ki, araşdırma zamanı qeyri-neft ixracına verilən təşviq ilə qeyri-neft ixracı arasında korrelyasiya əmsalı da hesablanmışdır və çox güclü müsbət korrelyasiya olduğu aşkarlanmışdır (ixrac korrelyasiya əmsalı - 0,961730337).Qeyri-neft ixracına verilən təşviq ilə qeyri-neft ixracının artması arasındakı əlaqəni müəyyənləşdirmək üçün kovariasiya düsturu ilə apardığımız hesablama isə cədvəl 2-də əksini tapmışdır.

**Cədvəl 2. Qeyri-neft ixracına verilən təşviq ilə qeyri-neft ixracının artması arasındakı əlaqə**

Kovariasiya düsturu (Covariation formula):

$$covariation\ coefficient = \frac{1}{n} * \sum_{i}^{n} (x - \bar{x}) * (y - \bar{y})$$

| İllər | İxrac təşviqi, mln. azn. | Qeyri-neft ixracı ümumi dəyəri, mln. azn | Neft ixracı | İxrac kovariasiya göstəricisi | Xalis ixrac kovariasiya göstəricisi |
|---|---|---|---|---|---|
| 2016 | 0,43 | 1237 | 1236,57 | 879,9344 | 866,746184 |
| 2017 | 2,68 | 1538 | 1535,32 | | |
| 2018 | 4,95 | 1689 | 1684,05 | | |
| 2019 | 9,4 | 1954 | 1944,6 | | |
| 2020 | 9,6 | 1851 | 1841,4 | | |

Həmçinin polinom kub reqressiya modeli (Polynomial cubic regression model) ilə apardığımız hesablama da qeyri-neft ixracına verilən təşviq ilə qeyri-neft ixracının artması arasında müsbət əlaqənin olduğun göstərir. Qrafik 1-də isə polinom kub reqressiyası və ixraca

verilən təşviqin qeyri neft-qaz ixracının artmasına təsiri əks olunmuşdur.

Azərbaycanın beynəlxalq iqtisadi təşkilatlara inteqrasiyası kənd təsərrüfatı məhsullarının emalının dərinləşdirilməsinə də töhfə verə bilər.




Qrafik 1.Polinom kub reqressiyası

*Mənbə:http://economics.com.az/index.php/kitabxana/tan-nm-iqtisad-lar.html*

İşdə aqrar sahə məhsulları ixracının artırılmasının ərzaq təhlükəsizliyi siyasəti ilə əlaqələndirilməsi məsələsinə də baxılmışdır. Göstərilmişdir ki, ümummilli lider Heydər Əliyev tərəfindən 2001-ci il 2 mart tarixində «Azərbaycan Respublikasının Ərzaq təhlükəsizliyi Proqramı»nı təsdiq etmiş və uğurla icra olunmuşdur. Bu siyasət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş və ərzaq təhlükəsizliyinin təmin istiqamətində ölkəmiz mühüm naliyyətlərə imza atmışdır. Məhz görülən kompleks tədbirlər nəticəsində Azərbaycan son 7 il ərzində davamlı olaraq Qlobal Ərzaq Təhlükəsizliyi İndeksindəki mövqelərini yaxşılaşdıran ölkə olmuşdur. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) tərəfindən qəbul olunan bu tərifə əsasən ərzaq təhlükəsizliyi özündə 4 mühüm

komponenti - ərzağın mövcudluğu, ərzağa çıxış, keyfiyyətli ərzaqdan istifadə və ərzaqla davamlı təminat – birləşdirir. Professor E.Quliyev vurğulayır ki, ərzaq təhlükəsizliyi sadəcə tələb olunan qida məhsullarını təmin etmir, həm də onların keyfiyyətini, kalori tutumlarını və komponentlərini də özündə əks etdirir. Ümumiyyətlə, müstəqillik illərində iqtisadçı alimlərimiz ərzaq təhlükəsizliyi mövzusuna öz araşdırmalarında kifayət qədər yer ayırmışlar, bizim tədqiqatıımızda isə kənd təsərrüfatı ixracının artırılmasının ərzaq təhlükəsizliyinə təsiri məsələlərinə yer verilmişdir.

FAO-nun, BMT-nin Uşaq Fondu (UNİCEF), Ümumdünya Səhiyyə Təşkilatı, Dünya Bankı və digər mütəbər məlumat mənbələri əsasında hazırlanan "Qlobal Aclıq İndeksi"nin analizi də getdikcə kəskin hal alan qlobal ərzaq çatışmazlığı problemlərinin həllinin nə qədər zəruri olduğunu göstərir. Belə ki, 2020-ci ilin göstəricilərinə əsasən qlobal miqyasda ən azı 30 ölkədə kəskin aclıq problemləri mövcuddur. Buna müvafiq olaraq, xüsusilə də, gözlənilməz təbiət hadisələrinin iqlim dəyişmələrinin də təsiri ilə ərzaq əlçatanlığının kəskinləşdiyi dövrdə kənd təsərrüfatında informasiya kommunikasiya texnologiyalarından istifadə etməklə erkən xəbərdarlıq sistemlərinin qurulması, məlumat bazalarının formalaşdırılması və kənd təsərrüfatı, iqlim məlumatlarına əlçatanlıq, təbiət hadisələrinin modelləşdirilməsi və proqnozlaşdırılması, monitorinq və nəzarət sistemlərinin tətbiqi kimi innovativ yanaşmaların tətbiqi zərurətə çevrilir. Beləliklə, bir sıra mühüm amillər ərzaq təhlükəsizliyi məsələlərini milli iqtisadiyyat üçün önəmli faktora çevirir və ixrac qabiliyyətinin formalaşdırılması zamanı bu amillərin nəzərə alınması zəruridir. Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyini təmin etməsi bu baxımda da önəm daşıyır.

Qeyd edək ki, Azərbaycanın kənd təsərrüfatı ixracında əsas paya sahib bitkiçilik məhsulları ilə, xüsusən də meyvə-tərəvəzlə özünütəminetmə səviyyəsi 100 faizdən yuxarıdır.

Hesablamalarımız göstərir ki, 2030-cu ilə kimi tərəvəzlə özünütəminetmə səviyyəsi 2020-ci ildəki 110 faizdən 160 faiz, meyvə ilə özünütəminetmə səviyyəsi 2020-ci ildəki 116 faizdən 220 faizə qədər yüksələ bilər. Beləliklə, bu sahənin həm ölkənin iqtisadi təhlükəsizliyindəki rolu, həmçinin də ixrac imkanlarının genişləndirilməsinə təsirləri əsas götürülərək on illər boyu həyata keçirilən tədbirlər əhalinin

ərzaq təminatının yaxşılaşdırılmasına və qida təhlükəsizliyinin gücləndirilməsinə müsbət təsir göstərmişdir. Ancaq qarşıdakı illərdə adambaşına düşən ərzaq istehlakının qabaqcıl ölkələrin səviyyəsinə çatdırılması da zəruridir.

Nəzərə alınmalı və idxalı əvəzlənməsi siyasətinin əhəmiyyətlərindən biri də odur ki, məhz idxalın əvəzlənməsi siyasətinin inkişaf etdirilməsi, yerli istehsalın və daxili bazarın inkişafına səbəb olur, son nəticədə isə kifayət qədər özünütəminetmə səviyyəsinə nail olunduqda yeni ixrac imkanları yaranır. Hansı ki, bu zaman daxili bazarın da yerli resurslarla təmin olunmasına da nail olunur.

İşdə idxalı əvəzetmə və ixracı genişləndirmə üzrə qlobal qabaqcıl strategiyaların da geniş təhlili aparılmışdır. Göstərilmişdir ki, idxalın əvəzlənməsi siyasəti ictimaiyyət üçün yenilik deyildir. Bir sıra inkişaf etməkdə olan dövlətlər II Dünya Müharibəsindən sonra, iqtisadi inkişafın sənayeləşmə və kapital investisiyası ilə müəyyən edildiyi dövrdə idxalı əvəzləyən sənayeləşmə strategiyasını qəbul etmişdirlər. İdxalın əvəzedilməsi siyasəti bu gün də bəzi ölkələrdə öz aktuallığını qorumaqdadır. Latın Amerikasından Şərqi Asiyaya və Avropaya qədər bir çox ölkələr bu inkişafın bir neçə mərhələsini keçiblər. Tədqiqat zamanı Yaponiya, Tayvan, Çin, Hindistan, Koreya, Cənubi Afrika, Səudiyyə Ərəbistanı, Qazaxıstan və digər ölkələrin timsalında idxalı əvəzetmə və ixracı genişləndirmə ilə bağlı həyata keçirilən siyasət araşdırılmışdır.

Azərbaycanda gəldikdə isə qeyd edək ki, ölkəmiz müxtəlif illərdə bir sıra dövlət proqramlarında, xüsusi ilə də strateji yol xəritələrində bu istiqamətlərdə tədbirlərin görülməsi nəzərdə tutulmuşdur, hələ də lazımi hədəflərə tam nail olunmamışdır. Azərbaycanın ixracında mədən sənayesi məhsulları hələ də dominantlıq edir. Buna görə də növbəti illərdə ölkədə ixrac strategiyalarının inkişaf etdirilməsində ölkənin ümumi iqtisadi, coğrafi amilləri və iqtisadiyyatın sektorlar üzrə quruluşunun nəzərə alınması mühüm əhəmiyyətə malikdir. Bu baxımdan, yüksək inkişaf trendlərinə nail olmaq məqsədi ilə Azərbaycan üçün də aydın strateji hədəf və göstəriciləri olan, konkret məhsul qrupları və coğrafi bazarlara fokuslanmış aqrar istiqamətli ixrac strategiyasının qurulması zəruridir.

**"Aqrar sahədə məhsul istehsalı və ixracının sistem-struktur təhlili" adlanan üçüncü fəsildə** kənd təsərrüfatı məhsullarının istehsalının və emal edilmiş kənd təsərrüfatı məhsulları ixracının mövcud vəziyyəti təhlil olunmuş, aqrar məhsulların ixracı üzrə strateji təhlil və qiymətləndirilmələr aparılmış, ixracyönümlü kənd təsərrüfatı məhsullarının müqayisəli üstünlükləri müəyyənləşdirilmişdir.

Milli lider Heydər Əliyevin vaxtında icra edilən aqrar islahatların birinci dövrü Azərbaycanın sosial-iqtisadi tərəqqisinin bütün mərhələlərində kənd təsərrüfatı sahəsinin inkişafı üçün möhkəm təməl yaratmışdır. Bu islahatlar nəticəsində torpağın kəndlilərin özəl mülkiyyətinə verilməsinə əsaslanan təsərrüfatçılıq sistemi və aqrar sektorda bazar münasibətləri müvəffəqiyyətlə formalaşdırıldı. Qeyd edək ki, son illərdə bəzi məhsul növləri istisna olmaqla, bütün kənd təsərrüfatı məhsullarının istehsal həcmi artmışdır.

**Cədvəl 3. Azərbaycan Respublikasında bitkiçilik məhsullarının istehsalı (min ton)[4]**

| **İllər** | **1990** | **1995** | **2000** | **2005** | **2010** | **2015** | **2020** | **2020-ci ilin 1990-cı illə müqayisəsi, %, dəfə** |
|---|---|---|---|---|---|---|---|---|
| Dənli bitkilər cəmi | 1413,6 | 921,4 | 1540,2 | 2126,7 | 2000,5 | 2999,4 | 3257,1 | 130 dəfə |
| Kartof | 185,2 | 155,5 | 469,0 | 1083,1 | 953,7 | 839,8 | 1037,6 | 5,6 dəfə |
| Tərəvəz | 856,2 | 424,1 | 780,8 | 1127,3 | 1 189.5 | 1275,3 | 1738,9 | 103 dəfə |
| Bostan məhsulları | 67,5 | 41,9 | 261,0 | 363,8 | 433,6 | 484,5 | 448,1 | 6,6 dəfə |
| Meyvə | 367,4 | 324,4 | 477,0 | 625,7 | 729,5 | 888,4 | 1133,1 | 208 dəfə |
| Üzüm | 1196,4 | 308,7 | 76,9 | 79,7 | 129,5 | 157,1 | 208 | -83 |
| Şəkər çuğunduru | - | 28,1 | 46,7 | 36,6 | 251,9 | 184,3 | 253,3 | 9 dəfə *(1995-ci illə müqayisədə)* |
| Pambıq | 542,9 | 274,1 | 91,5 | 196,6 | 38,2 | 35,2 | 336,5 | -38 |
| Tütün | 52,9 | 11,7 | 17,3 | 7,1 | 3,2 | 3,5 | 6,9 | -87 |
| Dən üçün günəbaxan | 0,6 | 0,7 | 3,7 | 16,1 | 15,5 | 18,4 | 24,8 | 41,3 dəfə |
| Çay yarpağı | 30,7 | 9,41 | 1,08 | 0,73 | 0,54 | 0,58 | 0,93 | -97 |

2020-ci ildə dənlilərin və dənli paxlalı bitkilərin (qarğıdalısız) 955,4 min hektar əkin sahəsindən 2935,2 min ton məhsul yığılmışdır

[4] Cədvəl DSK-nın məlumatlarına əsasən müəllif tərəfindən hazırlanıb.

ki, bu da 2019-cu illə müqayisədə 9,8 faiz azdır. Orta hesabla isə hər hektardan 30,7 sentner məhsul yığımı təmin olunmuşdir. 2020-ci ildə sahələrdən 1738,9 min ton tərəvəz (əvvəlki ilə nisbətən 1,4 faiz çox), 1037,6 min ton (3,3 faiz çox) kartof, 448,1 min ton (0,1 faiz çox) bostan məhsulları yığılmışdır. Həmçinin, hektarın orta məhsuldarlığı tərəvəz üzrə 12 sentner, kartof üzrə 5 sentner, bostan məhsulları üzrə 15 sentner artmış və uyğun olaraq 188, 174 və 224 sentner təşkil etmişdir.

Aşağıdakı cədvəldən də göründüyü kimi, ölkədə heyvandarlıq məhsullarının istehsalı bir neçə dəfə artmışdır. Belə ki, 2000-ci illə müqayisədə 2019-cu ildə ölkədə ət (kəsilmiş çəkidə) istehsalı 2,2 dəfə, süd 2,1, yumurta 3,4, yun (fiziki çəkidə) 1,5, barama və bal istehsalı isə 9,7 dəfə artmışdır. Qeyd edək ki, 2020-ci ildə də artım tendensiyaları davam etmişdir.[5]

**Cədvəl 4. Azərbaycan Respublikasında əsas heyvandarlıq məhsullarının istehsalı (Bütün təsərrüfat kateqoriyaları üzrə)[6]**

| İllər | Ət (kəsilmiş çəkidə), min ton | Süd, min ton | Yumurta, milyon ədəd | Yun (fiziki çəkidə), min ton | Barama, ton | Bal, min ton |
|---|---|---|---|---|---|---|
| 1990 | 175,5 | 970,4 | 985,3 | 11,2 | 4902 | 0,5 |
| 2000 | 153,6 | 1031,1 | 542,6 | 10,9 | 66,6 | 0,6 |
| 2010 | 244,9 | 1535,8 | 1178,6 | 15,6 | 6 | 1,9 |
| 2015 | 298,6 | 1924,5 | 1552,9 | 17,0 | 0,236 | 2,6 |
| 2020 | 346,0 | 2192,5 | 1906,2 | 16,1 | 446,6 | 6,6 |
| 2020-ci ilin 1990-cı illə müqayisəsi, % | 97 | 2,3 dəfə | 93,5 | 43,8 | -91 | 13,8 dəfə |
| 2020-ci ilin 2010-cu illə müqayisəsi, % | 41,3 | 42,8 | 61,7 | 3,2 | 74,4 dəfə | 3,5 dəfə |

2020-ci ildə 346 min ton, yaxud əvvəlki ilə nisbətən 3,1 faiz çox kəsilmiş çəkidə ət, 2192,5 min ton (1,9 faiz çox) süd, 1906,2 milyon ədəd (4,3 faiz çox) yumurta, 16,1 min ton (0,2 faiz çox) yun, 446,6 ton barama istehsal olunmuşdur. Lakin onu da qeyd etməliyik ki, ölkənin qeyri-neft ixracının artırılmasına və milli iqtisadiyyatın inkişafına mühüm töhfə verə biləcək məhsullardan olan barama və balın istehsalı

[5] https://www.stat.gov.az/source/agriculture/

[6] Cədvəl DSK-nın məlumatlarına əsasən müəllif tərəfindən hazırlanıb.

son illərdə artsa da, hələ də SSRİ dövründəki göstəricilərə nail olunmamışdır. Bu isə, müvafiq istiqamətdə daha geniş miqyaslı tədbirlərin icra edilməsini zəruri edir.

Ölkədə kənd təsərrüfatı məhsullarının istehsalında bir çox sahələr üzrə artım baş versə də, statistik təhlillər onu göstərir ki, mövcud potensialdan tam istifadə olunarsa, daha yüksək istehsal və məhsuldarlıq göstəricilərinə nail olunması və ixracın da artırılması imkanları mövcuddur.

Azərbaycanın kənd təsərrüfatı ixracının son illərdə bir neçə dəfə artmasına baxmayaraq, bu sahənin potensialı tam reallaşdırılmamışdır. Aqrar sahə məhsullarının ixracında Azərbaycanın ən zəif daxili amillərindən biri logistika xərclərinin yüksək olması və inkişaf etmiş Qərb ölkələrinə birbaşa dəniz nəqliyyatı çıxışının olmamasıdır. Dünya Bankının apardığı qiymətləndirmələr də Azərbaycanın bu istiqamətdə nisbətən zəif göstəricilərə malik olduğunu göstərir.[7] Digər tərəfdən, nəqliyyat-logistika imkanlarının inkişafı baxımından son illərdə çox mühüm əhəmiyyətli meqa-layihələr icra edilsə də, bunlar əsasən neft-qaz sektoru ilə bağlı olmuşdur. Üçüncüsü isə, yüksək faiz dərəcələri səbəbindən fermer və sahibkarların maliyyəyə çıxış imkanlarının məhdud olması ilə bağlıdır.

2020-ci illə müqayisədə 2021-ci ildə qeyri-neft sektoru üzrə ixrac 870 milyon ABŞ dolları və ya 47,2 faiz artaraq 2,7 milyard ABŞ dolları təşkil etmişdir. 2021-ci ildə kənd təsərrüfatı məhsulllarının ixrac həcmi 877,2 milyon ABŞ dolları olmuş və 2020-ci ilə nəzərən dəyər ifadəsində 15,1 faiz artmışdır.

Araşdırmalar göstərir ki, göründüyü kimikənd təsərrüfatı ixracında meyvə-tərəvəz önə çıxmışdır. 2020-ci ildə meyvə-tərəvəz ixracının ümumi dəyəri 607,5 milyon ABŞ dolları, həcmi 606,5 min ton, qeyri-neft ixracında payı 32,8, ümumi ixracda payı isə 4,4 faiz təşkil etmişdir. Azərbaycanın qeyri-neft ixracında pomidor, meşə fındığı, alma, xurma, pambıq və digər kənd təsərrüfatı məhsulları xüsusi yer tutur.

[7] https://lpi.worldbank.org/international/aggregated-ranking

**Cədvəl 5. Azərbaycan Respublikasında kənd təsərrüfatı üzrə qəbul edilmiş sahəvi dövlət proqramlarının hədəflərinə nail olunma səviyyəsi üzrə vəziyyət[8]**

| Dövlət Proqramının adı | Göstəricinin adı | Proqram qəbulundan öncəki vəziyyət | Faktiki göstəricilər (2020) | Hədəf göstəricilər |
|---|---|---|---|---|
| AR-da baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı | 2025-ci ilədək yaş barama istehsalı | 245,2 ton | 446,6 ton | 6 min ton |
| AR-da sitrus meyvəçiliyinin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı | 2025-ci ilədək sitrus meyvələri istehsalı | 42,8 min ton | 46,7 min ton (2019-cu il üzrə) | 100 min ton |
| 2018–2025-ci illərdə AR-da şərabçılığın inkişafına dair Dövlət Proqramı | 2025-ci ilədək şərab ixracı (HS 2204-2205) | 6 milyon ABŞ dolları dəyərində | 4 milyon ABŞ dolları dəyərində | 5 dəfə artırılması |
| AR-da çayçılığın inkişafına dair 2018–2027-ci illər üçün Dövlət Proqramı | 2027-ci ilədək çayçılıq üzrə:- əkin sahəsi -yaşıl çay yarpağı yığımı | 1,1 min ha<br>0,7 min ton | 1,1 min ha<br>0,9 min ton | 3 min ha<br>8,5 min ton |
| AR-da çəltikçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı | 2025-ci ilədək çəltik üzrə:-orta məhsuldarlıq-əkin sahələri-istehsalın həcmi | 31,7 s/ha<br>5,1 min ha<br>16,2 min ton | 32,8 s/ha<br>3 min ha<br>9,9 min ton | 40 s/ha<br>10 min ha<br>40 min ton |
| AR-da pambıqçılığın inkişafına dair 2017–2022-ci illər üçün Dövlət Proqramı | 2022-ci ilədək xam pambıq istehsalı | 89,4 min ton | 336,5 min ton | 500 min ton |
| AR-da tütünçülüyün inkişafına dair 2017–2021-ci illər üçün Dövlət Proqramı | 2021-ci ilədək tütünçülük üzrə: -orta məhsuldarlıq -əkin sahəsi -istehsalın həcmi | 15,2 s/ha<br>2,3 min ha<br>3,5 min ton | 22,1 s/ha<br>3,1 min ha<br>6,9 min ton | 20 s/ha<br>6 min ha<br>12 min ton |

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO)-nun platformasının məlumatlarının təhlili onu göstərir ki, 2019-cu ildə Azərbaycanda almanın (100,9 s/ha), xurmanın (162 s/ha), fındığın (12,4 s/ha),

[8] Cədvəl AR Dövlət Proqramlarının və DSK-nın məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.

tütünün (19,3 s/ha) məhsuldarlığı dünya üzrə orta göstəricilərdən geridə qalır. Bu isə, yüksək məhsuldarlığa nail olunmaqla həmin məhsulların ixrac imkanlarının da əsaslı dərəcədə artırılmasına şərait yaradır.




Qrafik 2. Azərbaycanda adambaşına kənd təsərrüfatı məhsullarının ixracı, ABŞ dolları ilə[9]

Azərbaycan Respublikasında aqrar emal sənayesinin davamlı inkişafı qeyri-neft sektorunun ixrac potensialının realizasiyası və ərzaq təhlükəsizliyinin təmin olunması anlamında zəruridir. 2020-ci il ərzində 2019-cu illə müqayisədə məhsul istehsalı təkcə aqroemal sənayesinin bir sıra sahələrində deyil, digər qeyri-neft emalı sahələrində də artım qeydə alınmışdır (Cədvəl 6).

2020-ci ildə qida, tütün məhsullarının və içkinin istehsalı 4,5 milyard manata çatmışdır və müqayisə üçün həmin siyahıda ikinci yerdə duran neft məhsulları istehsalı sahəsində 3,1 milyard manat həcmində məhsul istehsal olmuşdur. 2020-ci il ərzində 2019-cu illə müqayisədə tütün məmulatlarının istehsalında 7,9 faiz, içki istehsalında 13,7 faiz, qida məhsullarının istehsalında isə 2,1 faiz azalma müşahidə olunmuşdur.

[9] Cədvəl DSK-nın məlumatlarına əsasən müəllif tərəfindən hazırlanıb.

**Cədvəl 6. Azərbaycanda emal sənayesi məhsullarının istehsal həcmi, milyon manat**

| Məhsulların adı | 1995 | 2000 | 2005 | 2010 | 2015 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|
| Qida məhsullarının istehsalı | 172,5 | 657,1 | 1094,5 | 1924,6 | 2307,6 | 3584,8 | 3741,3 |
| İçki istehsalı | 5,0 | 24,1 | 72,5 | 170,2 | 197,7 | 433,1 | 420,3 |
| Tütün məmulatlarının istehsalı | 7 | 17,7 | 30,5 | 22,3 | 27,2 | 248,9 | 436,7 |
| Toxuculuq sənayesi | 148,2 | 24,6 | 34,8 | 29,4 | 31,7 | 304,3 | 281,8 |

Statistik təhlillər göstərir ki, Azərbaycan ixrac olunan məhsulların çeşidinə görə də zəif nəticələr göstərir. Belə ki, Azərbaycan 1450 növ məhsulla ixrac olunan məhsul sayına görə dünya üzrə 103-cü yerdə qərarlaşmışdır.[10]

Tədqiqatımız zamanı Ticarət İxtisaslaşması İndeksi (TSİ) hesablamışıq. Ticarət İxtisaslaşması İndeksi (Trade Speiclization Index - TSI) – Bu indeksdən tədqiqatçılar kənd təsərrüfatı məhsullarının ixracının müqayisəli üstünlüyünü və rəqabətqabiliyyətliliyini qiymətləndirmək üçün faydalanırlar. Tədqiqatdan göründüyü kimi pambıq lifi, pomidor, alma, armud, pambıq ipliyi, fındıq, xiyar, üzüm, yerkökü üzrə Ticarət İxtisaslaşması İndeksi sıfırdan böyükdür və bu onu göstərir ki, Azərbaycan həmin məhsul və ya məhsul qrupu üzrə ixracda rəqabətqabiliyyətlidir.

Tədqiqat zamanı ixrac olunan kənd təsərrüfatı məhsulları ilə bağlı aşkar müqayisəli üstünlük (Revealed Comparative Advantages – RCA) göstəricisi də hesbalanmışdır. Bildiyimiz kimi hər hansı bir məhsul üzrə RCA göstəricisi nə qədər yüksəkdirsə bu ölkənin həmin məhsul üzrə ixrac gücü yüksək oldğunu göstərir. Hesablamalarımız zamanı bir daha aydın olmuşdur ki, ixracımızda yer alan pomidor, qabığı təmizlənmiş meşə fındığı,xurma, albalı və gilas, pambıq lifi, kartof, soğan, xiyar məhsulları üzrə aşkar müqayisəli üstünlüyü varıdır (RCA >1).

---

[10] https://wits.worldbank.org/CountryProfile/en/Country/BY-COUNTRY/StartYear/2015/EndYear/2017/Indicator/NMBR-XPRT-PRTNR#

Təhlillər həm də onu göstərir ki, Azərbaycanın qeyri-neft ixracının yalnız 3 ölkədən asılılıq səviyyəsi 68 faizdir və ixrac coğrafiyasının şaxələndirilməsi baxımından bu olduqca zəif bir göstəricidir. Bundan əlavə, Azərbaycandan ixrac olunan əksər məhsullar aşağı və orta-aşağı texnoloji səviyyəli təsnifat qruplarına daxil edilirlər. Kənd təsərrüfatı məhsullarının emal edilərək son məhsul kimi xarici bazarlara çıxarılması Azərbaycanın həmin məhsullar üzrə ixracının şaxələnməsinə və hər hansı yeganə bazardan asılılığının azalmasına müsbət töhfə verə bilər.

**"Azərbaycanda aqrar ixracın artırılması istiqamətləri" adlanan dördüncü fəsildə** ölkədə aqrar emal məhsullarının dəyər zəncirləri boyunca və klasterlər əsasında inkişaf etdirilməsi imkanları araşdırılmış və müəyyənləşdirilmiş, ixrac məhsullarının bazarlara çatdırılması prosedurları, nəqliyyat-logistika sisteminin inkişaf istiqamətləri və aqrar sahə üzrə ixracın artırılmasında işğaldan azad olunmuş regionların potensialından istifadə istiqamətlərinə baxılmış və proqnozlaşdırılmışdır.

Beynəlxalq Ticarət Mərkəzinin hesablamalarına görə Azərbaycandan dünyaya ən böyük ixrac potensialına sahib olan məhsullar pomidor, təzə meyvələr və polietendir. Pomidor ixracı isə potensial və faktiki ixracat göstəriciləri arasında ən böyük fərqə malik olan məhsullardandır və burada 122,8 milyon ABŞ dolları dəyərində əlavə ixracat həyata keçirmək imkanları mövcuddur. Bununla yanaşı, aqrar siyasətdə təklifyönümlülüyün (istehsal) tələbyönümlülükdən (bazar) daha üstünlüyə malik olması və "dəyər zənciri" yanaşması əsasında təkmilləşdirilməyə olan zərurət də ölkənin kənd təsərrüfatının zəif cəhətlərindən hesab oluna bilər.

Aqrar sənayenin dəyər zəncirləri boyunca inkişaf etdirilməsinin formalaşdırılmış metodoloji çərçivəsi əsasında aqrar sahənin inkişafına kompleks yanaşılması və dəyər zəncirlərinin inkişaf etdirilməsi, klasterləşmənin təbiqinə başlanılması təklif olunur. Apardığımız araşdırmalar nəticəsində kənd təsərrüfatı məhsullarının satış infrastrukturunun inkişaf etdirilməsi üçün ənənəvi bazarlara daha keyfiyyətli alternativ kimi "yaşıl market" şəbəkəsi, tələblərə uyğun ət kəsimi və satışı mərkəzləri, pilot "fermer mağazaları"nın formalaşdırılması üzrə tədbirlərin genişləndirilməsi və müxtəlif bölgələrdə kənd təsərrüfatı

üzrə ixtisaslaşmış topdansatış bazarları yaradılmasına ciddi ehtiyac olduğu da aşkarlanmışdır.

2020-ci ildə baş vermiş 44 günlük müharibə nəticəsində Ermənistan işğalında olan torpaqların azad olunması, özünün sosial və siyasi nəticələri ilə bərabər, iqtisadi əhəmiyyətli yeni mühiti və imkanları da formalaşdırdı. İşdə işğaldan azad olunmuş ərazilərin reinteqrasiyası və ixrac potensialının artırılması istiqamətlərində araşdırmalar aparılmışdır. Gəldiyimiz qənaət ondan ibarətdir ki, ən qabaqcıl institusional həllər, beynəlxalq inkişaf agentlikləri və investorların da cəlb edilməsi ilə quruculuq-bərpa və humanitar fəaliyyət, dövlət-özəl əməkdaşlığı, məcburi köçkünlərin geri qaytarılması və digər yanaşmalarla işğaldan azad olunmuş ərazilərin inkişafı təmin oluna bilər.

Qeyd edək ki, elmi-praktik fəaliyyətinin xarakterinə görə, uzun müddət Azərbaycanının iqtisadi inkişafının regional problemləri ilə məşğul olan akademik Ziyad Səmədzadə hələ 1995-ci ildə yazdığı əsərində işğaldan azad olunacaq ərazilərimizin inkişafı ilə bağlı dəyərli təkliflər irəli sürmüşdür. Akademik göstərmişdir ki, Qarabağ çoxsahəli kənd təsərrüfatına malik regionlardan biridir. Məhz bu təkliflərdən yola çıxaraq Qarabağda çoxsahəli kənd təsərrüfatınının inkişafına nail olmalıyıq. Bir çox alimlərimiz Ermənistanın işğalından azad edilməsindən sonra həyata keçirilməsi zəruri olan tədbirlər ilə bağlı dəyərli təkliflər vermişdir. Bu təkliflərin bir hissəsi də kənd təsərrüfatının inkişaf məsələlərini özündə ehtiva edirdi və göstərilir ki, işğaldan azad olunacaq ərazilərdəki 200 min hektar əkinçilik üçün münbit olan torpaq sahəsindən təyinatı üzrə səmərəli istifadə olunmalıdır

Qarabağa yerli və xarici özəl sərmayələr, kreditlər, qrantlar, texniki yardım, kraudfandinq, kraudinvestinq, vençur kapitalı, mələk və toxum investisiyaları cəlb olunaraq, investorları cəlb edə biləcək strateji aktivlər, zəngin resurslar və xarici bazarlara çıxış imkanlarının artırılması istiqamətində xüsusi proqram icra ediləcəkdir. Bu ərazilərdə quruculuq işləri ölkənin ümumi inkişaf strategiyaları çərçivəsində, yəni işğaldan azad olunan ərazilərin reinteqrasiyası və dəyər zəncirlərinə qoşulması ilə həyata keçirilə bilər. Beynəlxalq ekspertlər də cəlb olunmaqla Ermənistanın ölkəmizə vurduğu ziyan, o cümlədən, torpaq, su, meşə resurslarına, faydalı qazıntılara, əmlaka və mədəni sərvətlərə, ən əsası mülki insanlara dəyən ziyan hesablanaraq, qarşı tərəfə iddialar

qaldırılması isə əldə olunacaq vəsaitlərin bu ərazilərin gələcək inkişafına həsr olunmasına müsbət təsir edəcəkdir. Onu da qeyd edək ki, müvafiq dövlət qurumlarının hesablamalarına əsasən Qarabağdakı əkinçilik hesabına 1 milyard manata yaxın əlavə məhsul istehsalı yarana bilər ki, bu da son nəticədə ölkədə həm qeyri-neft sektorunun, həmçinin də ixracının artırılması ilə nəticələnə bilər.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sektoral iqtisadi profillərinin analizi də qeyri-neft sektorunun dirçəldilməsi və ixracının artırılmasının kifayət qədər potensial imkanlara malik olduğunu göstərir. Belə ki, işğaldan azad olunmuş ərazilərin müqayisəli üstünlükləri əsasında 4 regional mərkəzin yaradılması nəzərdə tutulub. Ağdamda sənaye mərkəzi, Cəbrayılda logistika və ticarət mərkəzi, Şuşada mədəniyyət və turizm mərkəzi, Kəlbəcərdə hasilat və turizm mərkəzinin yaradılması planlaşdırılır.

Yekunu olaraq onu qeyd edək ki, işğaldan azad olunmuş regionların sosial-iqtisadi profilinin analizi bu regionlarda qeyri-neft sektorunun inkişaf etdirilməsi baxımından çox böyük imkanların olduğunu göstərir. Hesablamalar onu göstərir ki, qarşıdakı dövrdə rayonların ənənəvi iqtisadi fəaliyyət sferaları nəzərə alınmaqla inkişaf etdirilməsi gələcəkdə ölkənin qeyri-neft ixracının artırılmasına da əhəmiyyətli dərəcədə təsir göstərəcəkdir. Eyni zamanda işğaldan azad olunmuş regionlarda mövcud olan bol su ehtiyatları Azərbaycanın digər regionlarında da aqrar inkişafa müsbət təsir göstərəcəkdir. Bu baxımdan, xüsusi ilə də Aran zonasında suvarma hesabına əkinçilik məhsulları istehsalının artmasını proqnozlaşdıra bilərik. Bununla yanaşı, ərazilərin minalardan təmizlənməsi əməliyyatının müəyyən zaman alması bu regionlarda kənd təsərrüfatının inkişafı və ixrac imkanlarının yaradılmasını ləngidə bilər. Ən mühüm məsələlərdən biri isə aqrar təsərrüfat sahələrinin inkişaf etdirilməsi zamanı bu regionlarda "ağıllı kənd" (smart village) və "ağıllı şəhər" (smart city) yanaşmalarının nəzərə alınması, aqrar istehsalın ən müasir texnologiyalara əsaslanmasıdır.

İşdə ixracyönlü aqrar-sənaye məhsullarının sertifikatlaşdırılması mexanizmlərinin müasir tələblərə uyğunlaşdırılması istiqamətində də araşdırmalar aparılmışdır. Son dövrlərdə strateji xətt olaraq Azərbaycan iqtisadiyyatının dünya bazarlarına geniş miqyasda inteqrasiyası və qeyri-neft məhsullarının ixracının artırılması prioritetləşdirildiyindən,

məhsullara dair tələbləri müəyyənləşdirən milli standartlaşdırma sisteminin də beynəlxalq standartlara uyğunlaşdırılmasının zəruriliyi çoxalmışdır. Bununla bağlı hazırda qeyri-neft məhsullarının ixracı sahəsində mühüm çağırışlardan biri yerli məhsulların beynəlxalq standartlar əsasında istehsal oluna bilməməsi və mövcud sertifikatların idxalçı ölkələr tərəfindən tanınmaması ucbatından həmin məhsulların ixracının mümkün olmamasıdır.

Məhz aqrar sahənin ixrac qabiliyyətinin artırılmasında mühüm əhəmiyyətə malik məsələlərdən biri də ixrac edilən məhsulların sertifikatlaşdırılması ilə bağlıdır. Çünki məhsullar ixrac olunarkən gömrük məntəqələrində yalnız sertifikatların tanınması və yaxud da təkrar sertifikatlaşdırma prosedurlarından sonra idxalçı ölkələrə girişinə icazə verilir. Aşağıdakı cədvəldə isə malların ixracı ilə bağlı mənşə və keyfiyyət sertifikatının əldə edilməsi göstərilsə də, bu sertifikatların əldə edilməsinə qədər digərlərinin də alınması tələb olunur. Buna görə də, sertifikatların sayı ixrac olunan ölkə, həmçinin də məhsulun növündən asılı olmaqla formalaşır.

Qeyd edək ki, qeyri-neft məhsullarının ixracının stimullaşdırılmasına dair tədbirlər planına uyğun olaraq, keyfiyyətin idarə olunması üzrə özəl təşkilatların formalaşdırılması və beynəlxalq akkreditasiyadan keçirilməsinə dəstək verilməsi üzrə işlərə başlanılmışdır. Lakin bu sahədə fəaliyyətin dərinləşdirilməsinə ehtiyac vardır.

Tədqiqat zamanı məlum olmuşdur ki, ölkəmizin yük avtomobilləri parkında bütün kateqoriyalardan 154 minə yaxın yük avtomobili var. İxracatçı sahibkarlarla müsahibələr zamanı aydın oldu ki, onlar pik dövrlərində daşımalarda çətinlik çəkirlər, bu zaman daşıma xidmətlərinin qiymət 50-70 faiz arasında qalxır və xarici ölkələrin daşıma şirkətlərinin xidmətindən istifadə etməli olurlar. Onun üçün də aqrar sahə üzrə ixrac potensialının reallaşdırılması baxımından nəqliyyat-logistika sahəsindəki problemlərin həlli vacibdir.

İxrac məhsullarının bazarlara çatdırılması prosedurlarının asanlaşdırılması və nəqliyyat-logistika sisteminin inkişaf istiqamətləri apardığımız araşdırmada Dünya Bankının "Doing Business 2020" hesabatının təhlilinda faydalanmışıq. Bu hesabatın təhlili onu göstərir ki, ixrac üçün tələb olunan sənədləşməyə sərf olunan vaxt və xərc baxımından Azərbaycan Avropa və Mərkəzi Asiya regionundan geridə qalır.

Respublikamız “Sərhəddə ticarət” indikatoru üzrə 190 ölkə arasında 83-cü yerdə qərarlaşmışdır.

**Cədvəl 7. “Doing Business 2020” hesabatında ixrac əməliyyatlarının səmərəliliyi üzrə göstəricilərin Gürcüstanla müqayisəsi[11]**

| Xarici ticarət üzrə indikatorlar | Azərbaycan | Gürcüstan |
|---|---|---|
| İxraca sərhəddə sərf olunan zaman (saat) | 17 | 6 |
| İxraca sərhəddə sərf olunan xərclər (ABŞ dolları) | 214 | 112 |
| İxrac sənədləşməsinə sərf olunan zaman (saat) | 33 | 2 |
| İxrac sənədləşməsinə çəkilən xərclər (ABŞdolları) | 250 | 0 |

Hazırda Azərbaycanda yüzlərlə portal elektron ticarətlə məşğul olsa da, onların böyük hissəsi həvəskar səviyyəsində fəaliyyət göstərir. Həmçinin, Azərbaycanda elektron ticarətlə məşğul olan portalların təhlükəsizlik məsələləri ilə bağlı araşdırmamız zamanı isə aydın olmuşdur ki, onlayn ödəniş sistemində kartların təhlükəsizliyi demək olar ki, eyni şəkildə qorunur və portallar hər hansısa təhlükə zamanı cavabdehlik daşımırlar. Bu isə qanunvericilik səviyyəsində tənzimləmə çərçivəsinin gücləndirilməsini tələb edir.

Statistik rəqəmlərin təhlili də portalın qeyri-neft ixracının artırılması baxımından əhəmiyyətini göstərir. Belə ki, təkcə 2020-ci ilin yanvar-dekabr aylarında Azexport.az portalı 610,8 milyon ABŞ dolları dəyərində ixrac sifarişləri qəbul etmişdir. 2019-cu illə müqayisə edildikdə 2020-ci ildə portal daxil olan ixrac sifarişləri dəyər baxımından 2,5 faiz yüksəkdir. 2020-ci ilin dekabr ayında portala daxil olan ixrac sifarişlərinin dəyəri 57,5 milyon ABŞ dolları təşkil etmişdir və ən çox ixrac sifarişi fındıq, toyuq əti və yumurtası, pambıq mahlıcı, tütün, çay, nar, şərab, qənnadı məhsulu, kosmetik vasitə, mühərrik yağı, yataq dəsti, buğda kəpəyi, pambıq yağı, zəfəran, noxud və s. mallarla əlaqədar olmuşdur. Ümumilikdə isə, 2017-ci ilin yanvar ayından 2020-ci ilin 31 dekabr tarixinə qədər (48 ay müddətində) portala 142 ölkədən daxil olmuş ixrac sifarişlərinin ümumi həcmi 2 milyard 195,6 milyon ABŞ dolları olmuşdur.

Lakin elektron ticarət üzrə ölkələrarası müqayisə göstərir ki, bu sahədə potensial inkişaf imkanları hələ də mövcuddur. BMT-nin Ticarət

[11] https://www.doingbusiness.org/en/data/exploreeconomies/azerbaijan#DB_tab

və İnkişaf Təşkilatının (UNCTAD) son hesabatına görə, Azərbaycan elektron ticarət üzrə 152 ölkə arasında 65-ci olub, ölkəmiz bu göstərici üzrə əvvəlki illə müqayisədə 2 pillə geriləyib. UNCTAD reytinqin hazırlanması zamanı ölkədə internetdən istifadə vəziyyəti, bank xidmətlərinə əlçatanlıq, mobil ödəniş sistemləri, təhlükəsiz serverlər, internet mağazaların sayı, poçtun, çatdırılma xidmətinin vəziyyəti, bağlamaların çatdırılma vaxtı kimi göstəricilər üzrə qiymətləndirmələr aparıb. Reytinq cədvəlində Belarus 35-ci, Rusiya 41-ci, Gürcüstan 47-ci, Ukrayna 51-ci, Moldova 53-cü, Qazaxıstan 60-cı, Ermənistan 84-cü yerdədir.[12]

Təhlilimiz göstərir ki, Azexport kimi elektron ticarət platformalarının ölkənin qeyri-neft, xüsusi ilə aqrar sahə məhsullarının ixracının artırılmasında böyük potensialı vardır. Elektron ticarət də daxil olmaqla nəqliyyat-logistika şəbəkəsinin inkişaf etdirilməsi isə ölkədə aqrar ixrac məhsullarının ən azı bir neçə dəfə artırılmasına dəstək göstərə bilər. Həmçinin, Quba-Xaçmaz, Gəncə-Qazax, Lənkəran və Aran iqtisadi rayonlarının potensial imkanlarını nəzərə alaraq, bu iqtisadi rayonlarda quru və soyuducu anbarların tikintisinin təşkili məqsədəuyğun hesab olunur.

**“Aqrar sahədə ixracın artırılması mexanizmlərinin təkmilləşdirilməsi”** adlanan beşinci fəsildə ekoloji təmiz və ixracda ənənəvi olmayan aqrar sahə məhsulları üzrə ixracın artırılması imkanları, ixracyönümlü kənd təsərrüfatı məhsullarının istehsalı və ixracı üzrə təşviq mexanizmlərinin təkmilləşdirilməsi məsələləsinə baxılmış, ixracyönlü aqrar-sənaye məhsullarının sertifikatlaşdırılması mexanizmləri araşdırılmış, aqrar sahədə innovativ maliyyə xidmətlərinin rolu tədqiq olunmuş, post-pandemiya dövründə ixracyönlü aqrar-sənaye məhsulları üzrə istehsal potensialının yüksəldilməsi yolları müəyyənləşdirilmişdir.

Vətəndaşların təhlükəsiz və sağlam qidalanması hüququ 1996-cı ildə təsdiq edilmiş Roma Deklarasiyasında öz əksini tapmış və bununla da qida istehsalçıları qarşısında ciddi vəzifələr qoyulmuşdur. Ekoloji cəhətdən təmiz məhsul istehsalının artırılması ixrac kanallarının genişləndirilməsi vasitələrindən biri kimi son illər Azərbaycanın

---

[12] https://unctad.org/system/files/official-document/tn_unctad_ict4d17_en.pdf

da ixrac siyasətində mühüm yerlərdən birini tutur. Regionların sosial-iqtisadi inkişafı, yoxsulluğun azaldılması, ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair dövlət proqramları öz təsirlərini əhalinin rifah halının yüksəldilməsi, məşğulluğun artırılması, və regionların sosial-iqtisadi inkişafı üzrə tədbirlər icra edilmişdir.

Qeyd edək ki, ölkədə «Ekoloji təmiz kənd təsərrüfatı haqqında» Azərbaycan Respublikası qanunu 13 iyun 2008-ci il tarixində qəbul olunmuş, sonrakı dövrlərdə qanunvericiliyə müvafiq əlavə və dəyişikliklər edilmişdir. Qeyd olunanlarla yanaşı, ekoloji təmiz kənd təsərrüfatı istehsalı üzrə təlim və təhsil kurslarının təşkil olunması, fermerlərin ixtisaslaşması, təhsil proqramları hazırlanması, mütəxəssislər üçün xüsusi peşə hazırlıq mərkəzlərinin yaradılması, bu sahədə davamlı tədqiqatlar aparılması da mühüm əhəmiyyətə malikdir. Fermerlər arasında maarifləndirmə işlərinin aparılması, ekoloji təmiz kənd təsərrüfatı məhsullarının becərilməsi üzrə texnologiyalarla ilə bağlı broşür və digər çap materiallarının dərc olunması istiqamətlərində tədbirlərin genişləndirilməsi sahənin inkişafına müsbət töhfə verə bilər.

Artıq inkişaf etmiş ölkələrdə vətəndaşların həyat və sağlamlığı məsələləri daha çox aktuallıq kəsb etməyə başlayır, qanunvericiliyə bu məqsədlə sərt tənzimləyici müddəa və tələblər irəli sürülür. Buna görə də, inkişaf etmiş ölkələrə aqrar sahə məhsullarının ixrac imkanları da getdikcə daralmaqdadır. Bu baxımdan, bu ölkələrin müvafiq yanaşma və təcrübələri, qaydaları nəzərə alınmaqla ölkədə ekoloji təmiz kənd təsərrüfatının tənzimlənməsi və təşviqi mühüm əhəmiyyətə malikdir.

Orqanik kənd təsərrüfatının inkişaf etdirilməsi üçün müxtəlif güzəşt mexanizmlərinin yaradılması, fermerlərin məhsul istehsalı üçün sertifikat alma xərclərinin dövlət tərəfindən qarşılanması, fermerlərə məhsulu analiz etmə xərci və məsləhət xidməti sahəsində yardımların göstərilməsi və s. kimi istiqamətlərdə dəstək tədbirlərinin icra edilməsi yekun nəticədə orqanik kənd təsərrüfatı üzrə ölkədə əsaslı inkişaf meyilləri yarada bilər.

Azərbaycanın qeyri-neft sektorunun digər sahələrində olduğu kimi orqanik və ənənəvi olmayan kənd təsərrüfatı məhsulların ixracının yüksəldilməsi yolunda hələlik dayanıqlı mövqeyə malik olmadığı özünü göstərir. Bu sahədə xeyli mütərəqqi strateji tədbirlərin görülməsi, dövlət proqramların icrası və bir çoxlarının hazırda icra prosesində

olması isə bu qənaətə gəlməyə imkan verir ki, yaxın gələcəkdə Azərbaycanda qeyri-neft sektorunun ixrac potensialından istifadənin daha səmərəli, məhsuldar yollarının formalaşdırılması tədbirləri intensivləşə bilər. Məhz aqrar sahə üzrə məhsuldarlığın yüksəldilməsi ixrac potensialından istifadədə səmərəliliyinin artırılmasına xidmət edə bilər.

İxracda ənənəvi olmayan məhsullar üzrə ixrac imkanlarının artırılması Azərbaycanda son illər aqrar sahədə dövlət siyasətinin əsas prioritetlərindən biridir. Buna görə də, xüsusi ilə də son 5 il ərzində ölkənin ixracında ənənəvi olmamış və son illər ixracına başlanılan bitkiçilik və heyvandarlıq məhsullarının ixracı təşviq edilir. Məhz ixracın artması yönündə həyata keçirilən kompleks tədbirlərin nəticəsində 2018-ci ildə diri heyvanlar və heyvan mənşəli məhsulların ixracı 12,1 milyon və 2019-cu ildə 23,2 milyon ABŞ dolları, 2020-ci ildə isə 19,4 milyon ABŞ dolları təşkil etmişdir.

Ölkə başçısının müəyyən etdiyi siyasətə uyğun olaraq qarşıdakı dövrdə Azərbaycanın aqrar ixracının strukturunda yeniliklərin olacağı proqnozlaşdırıla bilər. Arpa və soğan məhsulunun aqrar ixracda tutacağı mövqeyə gəlincə isə hesablamalarımız göstərir ki, əhalinin artımı, heyvandarlığın inkişafı və digər amillərin təsiri ilə 2030-cu ilə qədər ölkədə arpaya olan tələbat artacaqdır. Onu da qeyd edək ki, FAO-nun məlumatına əsasən 2018-ci ildə dünya üzrə arpanın orta məhsuldarlığı 29,5 sent/ha olub. Nəzərdən keçirilən dövrdə Azərbaycanda bu göstərici 27,9 sent/ha təşkil edib. Almaniyanın əsas istehsalçı ölkələr arasında arpa üzrə ən yüksək məhsuldarlıq (69,3 sent/ha) nümayiş etdirmişdir. Təhlillər göstərir ki, Azərbaycanda da arpanın məhsuldarlığını yüksəltmək potensialı vardır. Xüsusən yeni formalaşdırılan iri təsərrüfatlarda arpanın məhsuldarlığının suvarılan torpaqlarda 35-45 sent/ha təşkil edir.

Azərbaycanın soğan ixracı qlobal soğan ixracının dəyər ifadəsində 0,2 faizinə bərabərdir. 2018-ci ildən Azərbaycandan ixrac olunan soğanın 1 tonunun orta qiyməti 208,7 ABŞ dolları, 2019-cu ildə isə 302 ABŞ dolları olmuşdur. Bu isə onu göstərir ki, Azərbaycanın ixrac etdiyi soğanın orta qiyməti dünya üzrə idxal olunan soğanın orta qiymətindən aşağıdır. Azərbaycanın soğan ixracının coğrafiyası genişlənir və qarşıdakı illərdə onun ixracının artırılması, keyfiyyət meyarlarının yüksəldilməsi

və beləcə Avropa bazarlarına çıxışı imkanları da mövcuddur. Orqanik soğan ixracının artması isə həm də fermerlərin gəlirlərinin artmasına xidmət edəcəkdir. İxracın artırılması tədbirlərin həyata keçirilməsinə paralel olaraq ixrac bazarlarının tapılması istiqamətində də işlərə başlanılmalı və bu məhsulların ixracı "nişe bazarlar"a yönəldilməlidir. Azərbaycandan "nişe bazarlar" üçün məhsul ixrac etmək mümkündür və ölkə bu bazarlarda orqanik məhsul və halal məhsul ixracı üzrə fokuslaşa bilər.

İşdə ixracyönümlü kənd təsərrüfatı məhsullarının istehsalı və ixracı üzrə təşviq mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı apardığımız araşdırma göstərir ki, ölkəmizdə 2016-2020-ci illərdə tətbiq edilən ixrac təşviqi mexanizmi növbəti mərhələdə təkmilləşdirilmədir. Qeyd edək ki, 2020-ci ildə ölkədə ixrac təşviqinin verilməsi prosesi tamamlanmış və növbəti dövrlər üçün ixrac təşviqi siyasəti yenilənməmişdir. Bu baxımdan, bu siyasətin gələcəkdə effektiv formada davam etdirilməsi üçün şəffaf mexanizmin qurulması və sahibkarlıq subyektlərinin əhatə dairəsinin genişləndirilməsinə ciddi ehtiyac vardır.

Qeyd olunmuşdur ki, 2018-ci ilin 28 dekabr tarixli Fərmanla AZPROMO-nun bazasında Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi yaradılması ixracın və investisiyaların təşviq baxımından da mühüm addımdır.

Beynəlxalq sertifikatın alınmasına dövlət dəstəyinin də olmasına baxmayaq, bu sahədə problemlər də qalmadadır. Xüsusən kiçik və orta sahibkarların ixrac prosedurları ilə bağlı məlumatsızlığı, beynəlxalq sertifikatın alınması üçün yetərli vəsaitlərinin olmaması, tələb olunan sənədlərin sayının çox olması, sənədlərin doldurulmasında təkrarçılıq, gecikmə və sair məsələlər ixracla məhdud sayda sahibkarın məşğul olması ilə nəticələnir. Qeyd olunan problemlər kiçik və orta sahibkarlar üçün ixracat prosesinin əlçatmaz olması təəssüratı yaradır. Qeyd olunduğu kimi, “Doing Business 2020” hesabatında Azərbaycan ticarətlə bağlı prosedurlarda 79 balla 83-cü yerdə qərarlaşmışdır və bu reytinq regional müqayisədə yaxşı göstərici hesab olunmur.

Apardığımız araşdırmaların nəticəsi olaraq qeyd edə bilərik ki, gömrük prosedurlarının beynəlxalq standartlara uyğunlaşdırılması, sərhəd keçid məntəqələrində fiziki şəxslərin keçidinin sürətləndirilməsi, gömrük sistemində yeni elektron sistemlərin tətbiqi, qurumlar arasında səmərəli

əlaqələndirmə, prosedurlarda təkmilləşdirmə və vahid pəncərə prinsipinin tətbiqi həlli ən vacib amilərdəndir.




Qrafik 3. "Doing Business 2020"-yə əsasən ölkələrin "sərhəddə ticarət" indikatoru üzrə reytinqi[13]

Aqrar sahədə innovativ maliyyə xidmətləri çeşidinin genişləndirilməsi və onun ixracın gücləndirilməsindəki rolunun artırılması istiqamətində ki araşdırmamızda elmi cəhətdən əsaslandırılmış nəticələr əldə edilmişdir. 2020-ci ilin nəticələrinə əsasən bankların ümumi kredit portfelinin həcmi 14,5 milyard manat, kənd təsərrüfatı üzrə portfelin həcmi isə 566 milyon manat təşkil etmişdir. Kənd təsərrüfatı üzrə kredit portfelinin 2010-cu ilin 441 milyon manat göstəricisindən 125 milyon manat həcmində çox olması isə daha çox ümumi kredit portfelinin həcminin artması ilə əlaqədardır.[14]

Kredit portfellərinin son 10 il ərzində olan dinamikası da kənd təsərrüfatı sektorunun maliyyə sistemində baş vermiş proseslərdən nə qədər təsirləndiyini və kreditləşmədə sektorun payının müqayisəvi təhlilini aparmağa imkan yaradır (Qrafik 4).

Azərbaycanda ticarətin maliyyələşməsi barədə açıq informasiya mənbələrində lazımi məlumatlar xeyli azdır. Belə ki, rəsmi statistikalarda ticarətin maliyyələşdirilməsi xidmət sektoru ilə birgə açıqlanır ki, bu da sırf ticarət sektoruna nə qədər maliyyə resurslarının sərf olunduğunu hesablamağa mane olur. Bu baxımdan, ticarətin maliyyələşməsi üzrə ayrıca məlumatlara çıxış imkanının yaradılması məqsədi ilə bank sistemində statistik göstəricilərin təsnifat qaydasının

---

[13] https://www.doingbusiness.org/en/data/exploreeconomies/azerbaijan#DB_tab

[14] https://www.cbar.az/page-42/monetary-indicators#page-2

təkmilləşdirilməsi, ticarət və xidmət sektoru üzrə statistikanın bir-birindən ayrılması təklif olunur.




Qrafik 4. Kənd təsərrüfatı kredit portfelinin inkişaf dinamikası (milyon AZN)[15]

Qeyd olunanları nəzərə alaraq, bank sektorunda innovativ yanaşmalar tətbiq etməklə ticarətin maliyyələşməsi üzrə yeni alət və kreditləşmə növlərinin tətbiqi, bunun üçün qanunvericilik çərçivəsində müvafiq addımların atılması, maarifləndirmə tədbirlərinin görülməsi, güzəştli şərtlərin hazırlanması ticarət sektorunun maliyyələşmə imkanlarını daha da yaxşılaşdırmış olardı.

2020-ci ildə kənd təsərrüfatı sektorunda faktiki qiymətlərlə məhsul istehsalı 4,9 milyard ABŞ dolları olmuş ki, bu da 2019-cu ilin analoji göstəricisindən (4,6 milyard ABŞ dolları) çoxdur.

Digər tərəfdən, rəsmi statistikaya əsasən, 2020-ci ildə kənd təsərrüfatı sektorundakı böyümə 2 faiz təşkil etmişdir ki, bu da əvvəlki ilin analoji göstəricisindən (7,2 faiz) 3,5 dəfə azdır. heyvandarlıq sektorunda azalma meyli bitkiçilik sektoru ilə müqayisədə daha az baş vermişdir. Heyvandarlıq və bitkiçilik sahələrində böyümə faizi müvafiq olaraq, 2020-ci ildə 3,1% və 0,8% təşkil etmişdir, bir il əvvələ diqqət yetirsək,bu rəqəmlərin 2019-cu ilin analoji göstəricilərindən az

[15] Cədvəl DSK-nın məlumatlarına əsasən müəllif tərəfindən hazırlanıb.

olduğunu görə bilərik. 2019-cu ildə heyvandarlıq və bitkiçilik sahələrində artım müvafiq olaraq, 3,5% və 11,7% olmuşdur.




Qrafik 5. 2019-2021-ci illərdə kənd təsərrüfatı sektorunda və əsas seqmentlərdə artım, %[16]

Postpandemiya dövründə ixracyönlü aqrar-sənaye məhsulları üzrə istehsal potensialının yüksəldilməsi yolları ilə bağlı tədqiqatımız onu göstərir ki, Azərbaycan iqtisadiyyatı pandemiyadan əhəmiyyətli dərəcədə təsirlənmişdir. Bundan əlavə, 2020-ci ilin sonlarına doğru bəzi məhsulların (xüsusən pomidorda) ixracat göstəricilərində azalma müşahidə olunmasının səbəbi pandemiya deyil, daha çox geo-siyasi məsələlərlə bağlı olmuşdur. Pandemiya zamanı kənd təsərrüfatı sektoru prioritet sahə kimi diqqət mərkəzində olub və hökumət tərəfindən yuxarıda göstərilən dəstək tədbirləri həyata keçirilib. 2020-ci ildə kənd təsərrüfatı sektorunda faktiki qiymətlərlə məhsul istehsalı 4,9 milyard ABŞ dolları olmuş ki, bu da 2019-cu ilin analoji göstəricisindən (4,6 milyard ABŞ dolları) çoxdur.2020-ci ildə taxıl (qarğıdalı ilə), günəbaxan və barama məhsulları istisna olmaqla, bütün kənd təsərrüfatı məhsullarının istehsalı artmışdır.[17]

---

[16] Cədvəl DSK-nın məlumatlarına əsasən müəllif tərəfindən hazırlanıb.
[17] SSCRA, 2020b.The State Statistical Committee of the Republic of Azerbaijan.2020. https://www.stat.gov.az/source/agriculture/?lang=en

Qeyd edək ki,tədqiqat zamanı postpandemiya dövrü üçün poqnozlarda işlənmişdir. Maliyyə proqramı modelinə əsaslanmaqla baza ssenarisi əsasında apardığımız hesablamalar kənd təsərrüfatı və ticarət sektorlarının artım templərinin 3 faiz ətrafında stabilləşəcəyini göstərir.

Maliyyə modeli proqramı çərçivəsində hesablanan artım templəri əsas götürülməklə 2030-cu ilədək ÜDM-in 119 milyard manata çatacağı proqnozlaşdırılır ki, bu da 2020-ci ilin göstəricisindən 1,8 dəfə çoxdur. Qeyri-neft qaz ÜDM-in ümumi ÜDM-də payının isə 2030-cu ilədək 6 faiz artmaqla 70 faiz və ya 23,4 milyard manata çatması proqnozlaşdırılır. Həmçinin, sektoral proqnozlaşdırma göstəriciləri 2030-cu ilədək kənd təsərrüfatının qeyri-neft ÜDM-in 11 faizini təşkil edəcəyini göstərir. Ümumilikdə, kənd təsərrüfatı sektorunda 1,8 dəfə artım proqnozlaşdırılır. Eyni zamanda apardığımız araşdırmaların yekunu olaraq onu qeyd edə bilərik ki, 2030-cu ildə qeyri-neft qaz ÜDM-də ticarət və kənd təsərrüfatı sektorları birlikdə ən yüksək paya (29 faiz) malik olacaqdır.

Hesablamamız göstərir ki, 2025-ci ilə kimi kənd təsərrüfatı ixracını 1,2 milyard ABŞ dollarına çatdırmaq potensialı mövcuddur.




Qrafik 6. Kənd təsərrüfatı ixracı üzrə proqnozlar, (milyon ABŞ dolları)[18]

[18] DSK-nın məlumatları əsasında müəllif tərəfindən hesablamışdır.

2030-cu ilə kimi isə kənd təsərrüfatı 1,7 milyard ABŞ dolları dəyərində ixrac həyata keçirilə bilər. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və onun çərçivəsində hazırlanan "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın reallaşması nəticədə ixracla bağlı qarşıya qoyulan hədəflərə tam nail olmaq mümkündür.

**Tədqiqatın gedişində əldə edilmiş əsas nəticələrin, yeni elmi yanaşmaların, təklif və tövsiyələrin bir qismini xülasə edirik:**

1. Çağdaş dünyada milyonlarla insan onlayn platformalar üzərindən ticarət əməliyyatlarını hər hansı vasitəçi olmadan rəqəmsal formada icra edir. Daha geniş miqyasda texnologiya əsaslı platformalar indidən tələb iqtisadiyyatını formalaşdırır. İnternet bu sahədə yeni imkanlar açmış və elektron ticarətdə böyük inkişafı baş vermişdir. Bu baxımdan Azərbaycanın uzunmüddətli qeyri-neft ixracının artırılması strategiyası da mövcud cağırışlara cavab verməlidir. Təhlillərimiz göstərdi ki, son dövrlərdə qeyri-neft ixracında qeydə alınan artımda əsas səbəblərdən biri də kənd təsərrüfatı istehsalında muşahidə olunan artımla bağlıdır. Bır sıra kənd təsərrüfatı məhsullarının ixracında son illərdə qeydə alınmış artım göstəriciləri bunun əyani təzahürü hesab edilə bilər.

2. Doğrudur, müxtəlif illərdə bir sıra Dövlət Proqramlarında, inkişaf konsepsiyasında, Strateji Yol Xəritələrində qeyri-neft sektorunun və ixracının inkişaf etdirilməsi istiqamətlərində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Lakin hələ hədəflərə tam nail olunmamışdır. Bu baxımdan, yüksək inkişafa nail olmaq məqsədi ilə Azərbaycan üçün də aydın strateji hədəf və göstəriciləri olan, konkret məhsul qrupları və coğrafi bazarlara fokuslanmış aqrar istiqamətli ixrac strategiyalarının formalaşdırılması zəruridir.

3. Aqrar sahə Azərbaycanın qlobal dəyər zəncirlərində iştirak edən əsas sahələrdən hesab olunur. Aparılmış təhlillər onu göstərir ki, Azərbaycanın aqrar ixrac göstəriciləri hələ xeyli aşağıdır. Təhlillərimizin nəticəsi olaraq qeyd edə bilərik ki, ölkədə aqrar sahənin inkişaf etdirilməsi bir sıra çağrışlarla üzləşir. Bunların sırasında müasir istehsal vasitələrinin yetərli olmaması, təhsilli mülkiyyətçilərin azlığı, bu sahəyə kifayət qədər investisiyaların yönləndirilməməsi və s. qeyd edə bilərik. Onun üçün də aqrar sahə üzrə potensialımızdan tam istifadə edə

bilmirik. Amma apardığımız araşdırmalardan göstərir ki, Azərbaycanın bir sıra aqrar məhsullarının Rusiya və Avropa bazarlarında müqayisəli üstünlüyə malikdir.

4. Qeyri-neft ixracında 2016-2020-ci illər üzrə ortalama hər il 16,8 faiz artım olmasına baxmayaraq, qeyri-neft idxalında bu artım sürəti 12,5 faiz olmuşdur. Onu da qeyd edək ki, bu dövr ərzində qeyri-neft idxalı və ixracı arasındaki fərq 5,5 milyard dollardan 6,3 milyard dollara qədər artmışdır. Bu da öz növbəsində qeyri-neft idxalının qeyri-neft ixracından daha çox artması və idxalın dövriyyədə daha böyük paya sahib olmasının göstəricisidir. Son 5 il ərzində isə ölkədə məzənnə sabitliyi, makroiqtisadi balans qorusa da, dayanıqlı inkişaf və iqtisadi artım üçün digər amillərin də olması zəruridir. Belə ki, islahatların davamlı formada aparılması, aqrar sahədə innovasiya və texnologiyaların tətbiqi, sənayeləşmədə yerli resurslardan istifadənin artması və kənd təsərrüfatının dəyər zəncirləri üzrə və klaster yanaşmaları tətbiq edilməklə inkişaf etdirilməsi iqtisadi tərəqqinin davamlı olması baxımından mühüm əhəmiyyətə malikdir.

5. Son illər qeyri-neft ixracı potensialını artırmaq üçün müxtəlif islahatlar aparılsa da, ümumi ixrac dinamikası Azərbaycanın ticarət sektorunun neft-qaz sektorundan hələ də asılı olduğunu göstərir və bu mənfi meyllər son illər ərzində demək olar ki, əsaslı formada dəyişməmişdir. Lakin neft qiymətlərinin enməsi qeyri-neft sektorunun inkişafı üçün də yeni fürsətlər yaratmışdır ki, bu imkanların da lazımınca istifadə edilməsi zəruridir. Təhlillər həm də onu göstərir ki, Azərbaycanın qeyri-neft ixracının yalnız üç ölkədən asılılıq səviyyəsi 68 faizdir və ixrac coğrafiyasının şaxələndirilməsi baxımından bu olduqca zəif bir göstəricidir. Bundan əlavə, Azərbaycandan ixrac olunan əksər məhsullar aşağı və orta-aşağı texnoloji səviyyəli təsnifat qruplarına daxil edilirlər.

6. Azərbaycanda daxili ərzaq bazarının idxaldan asılılığın azaldılması məsələsi aktuallığını saxlamaqdadır. Hazırda ölkəmizdə iqtisadi və enerji təhlükəsizliyi ilə yanaşı, ərzaq təhlükəsizliyinin də mühüm əhəmiyyətə malik olduğu danılmazdır. Qlobal Ərzaq Təhlükəsizliyi İndeksinin təhlili göstərdi ki, Azərbaycan ərzaq təhlükəsizliyi göstəricisinə görə Avropa məkanında ən zəif, Asiya məkanında isə ən güclü 10 ölkədən biridir. Azərbaycanda qidaların keyfiyyəti və

təhlükəsizliyi, həmçinin də iqlim hadisələrinə qarşı ölkənin hazırlıq səviyyəsi aşağıdır və bu istiqamətdə tədbirlərin icrası zəruridir. Bu istiqamətdə qida təhlükəsizliyi üzrə sistemlərin inkişaf etdirilməsi, iqlim hadisələrinə qarşı erkən xəbərdarlıq sistemlərinin qurulması kimi innovativ yanaşmalardan istifadə edilməklə milli istehsalın kəmiyyət və keyfiyyətinin artırılmasına ehtiyac vardır.

7. Statistik göstəricilərin təhlili bir sıra məhsullar üzrə ölkədə son illərdə əsaslı inkişafa nail olunduğu, məhsuldarlıq, istehsal göstəricilərinin yaxşılaşdığını və buna müvafiq olaraq, ölkədən ixracın artdığını göstərir. Lakin qeyd olunduğu kimi, əsas kənd təsərrüfatı məhsulları üzrə istehsal və ixrac göstəriciləri potensial imkanlarına və dövlət proqramlarında təyin olunmuş hədəflərinə çatmamışdır. Bir sıra hallarda isə kənd təsərrüfatı məhsulları üzrə istehsalı göstəriciləri 2000-ci ilin göstəricilərindən də aşağıdır. Araşdırmalarımız onu göstərdi ki, ölkənin qeyri-neft ixracının artırılmasına və milli iqtisadiyyatın inkişafına mühüm töhfə verə biləcək məhsullardan olan barama və balın istehsalı son illərdə artsa da, hələ də yüksək göstəricilərə nail olunmamışdır. Bu isə, müvafiq istiqamətdə daha geniş miqyaslı tədbirlərin icra edilməsini zəruri edir.

8. İxrac olunan əksər məhsullar üzrə Rusiya bazarının çox yüksək paya malik olması, bu məhsulların dayanıqlı ixracını təhdid edən məsələlərdəndir. Baxmayaraq ki, bu məhsulların bəzi növləri üzrə Rusiya bazarında Azərbaycan əsas ixracatçıdır, bütün hallarda istehsal və ixracın artırılması ilə yanaşı, mövcud ixrac kanallarının da genişləndirilməsi istiqamətində tədbirlərin görülməsinə ehtiyac vardır. Əsas ticarət tərəfdaşlarından olan Rusiya və Türkiyə ilə 2011-2020-ci illərdə idxal dinamikasına nəzər yetirsək görərik ki, iki ölkə ilə idxal dövriyyəsi ümumi idxala nisbətdə kifayət qədər yüksəkdir.

9. Aşkar müqayisəli üstünlük indeksinə əsaslanan hesablamalara görə Azərbaycanın qeyri-neft sektoru üzrə ixrac potensialı yüksək olan məhsullar əsasən kənd təsərrüfatı məhsulları olaraq qalır. Digər tərəfdən, iqtisadi təhlillər Azərbaycanın qeyri-neft ixracının lazımi dərəcədə şaxələndirilmədiyini də göstərir. İxracat potensialı yüksək olan məhsullar üçün əsas bazarın Rusiya bazarı olması isə diversifikasiya siyasətinin kifayət qədər inkişaf etdirilməsini zərurətə çevirir. Ümumiyyətlə, əsas ixracat ölkələri üzrə Azərbaycanın ticarət əlaqələrini

inkişaf etdirmək üçün yeni ticarəti strategiyalarının hazırlanması və icrasına ciddi ehtiyac vardır.

10. Son illər ərzində emal sənayesinin inkişaf etdirilməsi istiqamətində də çox mühüm addımlar atılmışdır. Lakin bununla yanaşı, ölkənin kənd təsərrüfatı məhsullarının böyük bir qismi hələ də ilkin məhsul-xammal formasında xaricə ixrac olunur, bəzi hallarda isə yalnız ilkin emal mərhələsindən keçir. Bu isə öz növbəsində aqrar sahədə dayanıqlı inkişafa mane olmaqla yanaşı, ölkəyə külli miqdarda xarici valyutanın gəlməsinin də qarşısını alır. Qeyd olunanları nəzərə alaraq, aqrar sahə məhsullarının dəyər zəncirlərinin daha da genişləndirilməsi, emal müəssisələrinin sayının artırılması, xüsusi ilə də ilkin emal prosedurları üzrə yaxşı təcrübə və infrastruktur formalaşmış sahələr üzrə dəyər zəncirlərinin digər mərhələləri üzrə yeni müəssisələrin fəaliyyətinə güzəştli şərtlərlə şərait yaradılması təklif olunur. Belə olacağı təqdirdə, ölkənin aqrar sahə üzrə dünya bazarında daha qabaqcıl məhsullarla çıxış etməsi və ixtisaslaşması üçün yeni imkanlar da yarana bilər.

11. Hazırda ölkədə ekoloji təmiz və ya orqanik məhsul istehsalının təşviqi ilə bağlı icra edilən tədbirlər qənaətbəxş deyildir və aqrar sahədə həyata keçirilən tədbirlərinin əksəriyyəti ekoloji olmayan istehsalı təşviq edir. Qeyd edilənlər nəzərə alınaraq, Azərbaycanda ekoloji təmiz məhsul istehsalçılarına subsidiya verməsi məsələsinə baxılmasının vaxtı çatmışdır. Həmçinin orqanik məhsul istehsalının toxum və əkin materialları ilə təminatının gücləndirilməsi, bu məqsədlə KTN-nin tabeliyindəki müvafiq qurumların imkanlarından istifadə olunması təklif edilir.

12. Qeyri-neft ixracının artırılması baxımından mühüm rola malik amillərdən biri də aqrar sahənin dəyər zəncirləri boyunca və klasterlər formasında inkişaf etdirilməsidir. Məlum olduğu kimi, dəyər zənciri boyunca baş verən hər hansı çatışmazlıq kənd təsərrüfatı və aqrar məhsulların ixracı, satışı və yekun nəticədə məhsuldarlıq və istehsal göstəricilərinin də aşağı düşməsinə səbəb olur. Prioritet təşkil edən bitkiçilik məhsullarının əsas ticarət marşrutlarına və nəqliyyat qovşaqlarına yaxın yerləşən emal müəssisələri vasitəsilə daha yüksək dəyər yaradan məhsul kimi yerli və xarici bazarlara çıxarılması həllini göz-

ləyən məsələlərdəndir. Eyni zamanda, ölkədə kənd təsərrüfatı istehsalçılarının dəyər zənciri boyunca yüksək dəyər gətirən sahələrdə fəal iştirakının təşviq edilməsi üçün müxtəlif mexanizmlərin tətbiqi təklif olunur. Məsələn, yun bazarının olmaması səbəbindən yunun tam formada israfı və ya atılmasının qarşısını almaq məqsədilə müvafiq tədbirlərin görülməsi təmin edilə bilər.

13. Klaster yanaşmasının tətbiq edilməsi isə bu tipli dəyər zəncirlərinin kompleks formada inkişafını təmin edə, ölkədə aqrar sahənin inkişafı üçün yeni imkanlar yarada bilər. Əlbəttə, klasterlərin qurulması kifayət qədər maliyyə, zaman və ixtisaslaşma tələb edir. Lakin xüsusi ilə də işğaldan azad olunmuş torpaqlarda südçülük və şərabçılıq kimi mühüm klasterlərin yaradılması imkanları yüksəkdir. Örnək olaraq, Ağdam rayonunda tarixən şərabçılıq fəaliyyətinin olması şərabçılıq klasterinin burada yaradılmasını zəruri edir. Ətraf rayonlarda isə təminatı mümkün olan şərabçılıq klasterinin hissəsi olan çəllək, etiket, qapaq (tıxac) və butulka təminatı kimi xırda, amma kompleks birləşmələr yaradıla bilər. Şərabçılıq klasterinin üstün cəhətlərindən biri də odur ki, bu klasteri turizm, qida və restoran klasterləri ilə də əlaqələndirmək mümkündür. Onu da qeyd edək ki, aparılan geniş miqyaslı araşdırmalar göstərir ki, kifayət qədər maliyyə resursları tələb etməsinə baxmayaraq, klaster tipli yanaşmaların tətbiqi və kənd təsərrüfatının dəyər zəncirləri boyunca inkişafının təmin edilməsi son nəticədə ölkələrin ümumi iqtisadi inkişafına və ixrac potensialının artırılmasına çox mühüm təsir göstərə bilir.

14. İşğaldan azad olunmuş regionların sosial-iqtisadi profilinin təhlili bu regionlarda qeyri-neft sektorunun inkişaf etdirilməsi baxımından çox böyük potensialın olduğunu göstərir. Bu regionların ənənəvi iqtisadi fəaliyyət istiqamətləri də nəzərə alınmaqla aqrar sahənin inkişaf etdirilməsi gələcəkdə ölkənin qeyri-neft ixracının artırılmasına əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Lakin onu da qeyd etməliyik ki, işğaldan azad edilmiş torpaqların minalardan təmizlənməsi fəaliyyətinin uzun zaman alması bu torpaqların potensialından kənd təsərrüfatı məqsədləri və ixrac potensialının artırılması məqsədi ilə istifadəsinin də uzun müddətli fəaliyyət və resurslar tələb edəcəyini göstərir. Bu ərazilərdə kənd təsərrüfatının inkişaf etdirilməsi zamanı isə ən qabaqcıl təsərrüfatçılıq metodlarına əsaslanılması, müasir innovativ

alətlərdən istifadə edilməsi təklif olunur. Aqrar təsərrüfat sahələrinin inkişaf etdirilməsi zamanı bu regionlarda "ağıllı (smart) kənd" və " ağıllı (smart) şəhər" yanaşmalarının nəzərə alınması, aqrar istehsalın ən müasir texnologiyalara əsaslanması zəruridir. Qeyri-neft ixracı potensialının artırılması üçün bu regionlarda heyvandarlıq sahəsində kiçik ailə-fermer təsərrüfatlarının, əkinçilik istiqamətində iri taxılçılıq, meyvəçilik və tərəvəzçilik təsərrüfatlarının yaradılması mümkündür. Bu bölgələrdə ekoloji təmiz xammal potensialına əsaslanan yun, gön-dəri, konserv və ət emalı müəssisələrinin yaradılması da aqrar ixrac imkanlarını xeyli genişləndirə bilər. Apardığımız araşdırmaların nəticəsi olaraq, mövcud iqlim imkanları nəzərə alınaraq, regionlarda intensiv arıçılıq təsərrüfatlarının yaradılması və yüksək ixrac potensialına malik təbii bal istehsalı və ixracının təşkilini təklif edirik.

15. Azərbaycanın kənd təsərrüfatı məhsulları üzrə ixrac strategiyasının həm qiymət, həm də keyfiyyət rəqabətqabiliyyətliliyinə əsaslanması üçün maliyyələşmə imkanlarının artırılması zəruridir. Buna görə də aqrar sahə üzrə infrastrukturun bütün istiqamətlər üzrə inkişaf etdirilməsi üçün innovativ maliyyələşmə və kredit alətlərinin tətbiqi imkanları nəzərdən keçirilməlidir. Kənd təsərrüfatı məhsullarının tədarükçüləri ilə müqaviləsi olan şəxslərə girovsuz kreditlərin verilməsi, bir və ya bir neçə meyar üzrə birləşən potensial birgə borcalan qruplarına girovsuz kreditlərin verilməsi kimi innovativ kreditləşmə yanaşmaları buna nümunə kimi göstərə bilərik.

16. 2020-ci ildə ölkədə ixrac təşviqinin verilməsi prosesi tamamlanmış və növbəti dövrlər üçün ixrac təşviqi siyasəti yenilənməmişdir. Lakin ixrac təşviqinin müddətinin uzadılması və təşviq şamil olunan qeyri-neft məhsullarının siyahısının bir qədər də genişləndirilməsi ölkənin ixracında daha çox əmtəənin iştirakını stimullaşdıra bilər. Ancaq statistik təhlillər ixrac təşviqinin verildiyi sahibkarlıq subyektlərinin qeyri-neft ixracı həyata keçirən sahibkarların yalnız az bir qismini əhatə etdiyini göstərir ki, bu baxımdan da ixrac təşviqindən yararlanan sahibkarlıq subyketlərinin əhatə dairəsinin genişləndirilməsi faydalı olardı.

Gələcəkdə müvafiq siyasət davam etdirilərsə, ixrac təşviqinin ödənilməsi qaydalarının təkmilləşdirilməsinə (prosedurların sadələşdirilməsi və gömrük dəyəri problemi) də ciddi ehtiyac yaranacaqdır.

17. Yeni aqrar subsidiya siyasəti nəticəsində aqrar sahədə məhsul istehsalının və ixracının artacağını proqnozlaşdıra bilərik. Yeni subsidiya mexanizmi son illər aqrar sahədə tətbiq olunmuş ən mütərəqqi mexanizmlərdəndir ki, bu da aqrar sahədə ekstensiv inkişafın qarşısını alacaq və intensiv inkişafına müsbət təsir göstərəcəkdir. Bununla yanaşı, yeni kənd təsərrüfatı məhsulları üçün yeni bazarların müəyyənləşdirilməsi və onların emalının dərinləşdirilməsi istiqamətində fəaliyyətin gücləndirilməsi də zəruridir. Yeni subsidiya mexanizminin dövlət dəstəyi siyasətinin səmərəliliyinə hansı yöndə təsir edəcəyinin müntəzəm qiymətləndirilməsinin aparılması da təklif olunur ki, bu da aqrar sahədə dövlət müdaxiləsinin səmərəliliyin artırılmasına xidmət edə bilər.

18. Araşdırmalarımız onu göstərdi ki, milli iqtisadiyyatın inkişaf etdirilməsi baxımından bitkiçilik sektorunun istehsalı və ixracının prioritetləşdirilməsi daha mühüm əhəmiyyət kəsb edir və bitkiçilik məhsulları qeyri-neft ixracında yüksək xüsusi çəkiyə malik olmaqla milli iqtisadiyyatın gəlir mənbələrinin formalaşdırılması, ölkəyə xarici valyutanın daxil olması və beləcə makroiqtisadi sabitliyinin qorunub saxlanılmasında daha mühüm əhəmiyyətə malikdir. Konkret faktlar onu göstərir ki, dövlət büdcəsinin imkanlarının məhdudluğu ilə əlaqədar ixrac təşviqi verilmiş sahibkarlıq subyektlərinin sayı o qədər də çox olmamışdır. Buna görə də, gələcəkdə bu proqramın davam etdirilməsi zamanı ixtisaslaşma məsələlərinin nəzərə alınması və daha çox Azərbaycanın dünya bazarında rəqabətli istehsal və ixrac imkanlarına malik olduğu bitkiçilik məhsullarına, məsələn, alma, xurma, fındıq, pomidor və s. üstünlük verilməsi təklif edilir.

19. İxracın və investisiyaların təşviqi sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi məqsədi ilə 28 dekabr 2018-ci il tarixində Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi yaradılmışdır. Həmçinin bu agentlyin dövlət qeydiyyatına alınmasından sonra AZPROMO-nun ləğv edilməsi və onun maddi-texniki bazasının Agentliyin balansına verilməsi nəzərdə tutulmuşdur. Lakin 2021-ci ilin iyul ayına kimi bu proses baş verməmişdir. Təkilif edirik ki, yeni yaradılan agentlik tam fəaliyyətə başalayandan sonra onun tərkibində aqrar ixraca dəstək məqsədilə mərkəzin yaradılması məsələsinə baxılsın. Bununla yanaşı, qeyri-neft ixracının təşviq edilməsi

məqsədi ilə Azexport.az kimi daha innovativ platformaların inkişaf etdirilməsinə üstünlük verilməsi, icra edilən digər tədbirlərin əhatə dairəsi və təsir imkanlarının artırılması da təklif olunur. Belə ki, Azexport.az kimi elektron ticarət platformalarının ölkənin qeyri-neft, xüsusi ilə aqrar sahə məhsullarının ixracının artırılması baxımından rolu daha yüksəkdir. Elektron ticarət də daxil olmaqla nəqliyyat-logistika şəbəkəsinin inkişaf etdirilməsi isə ölkədə aqrar ixrac məhsullarının ən azı bir neçə dəfə artırılmasına mühüm təsir göstərə bilər.

20. Araşdırımamızdan aydın olur ki, qarşıdakı müddətdə yerli və xarici investisiyaların cəlb edilməsi yolu ilə intensiv və superintensiv alma bağlarının salınması, emal müəssisələrinin yaradılması məsələsi aktual olaraq qalacaqdır. Bu baxımdan, xarici investisiyaların cəlbi ilə modern texnologiyalar əsasında yeni meyvə emalı müəssisələrinin yaradılması təklif olunur. Araşdırmalar göstərir ki, ölkədə meyvəçiliyin inkişafında və ixracında mühüm nailiyyətlər əldə olunmuşdur. Lakin bu istiqamətdə daha yüksək nəticələrin əldə olunması və mövcud potensialın tam reallaşdırılmasına nail olmaq məqsədi ilə meyvəçiliyin inkişafına dair xüsusi Dövlət Proqramının qəbulu təklif olunur. Belə bir proqramın hazırlanaraq həyata keçirilməsi ölkədə meyvə emalı müəssisələrinin xammala olan tələbatının daxili istehsal hesabına ödənilməsi meyvəçiliyin kompleks inkişafına töhfə verə bilər.

21. İxracda ən yüksək paya malik 5 qeyri-neft sektoru məhsulu sırasına daxil olan 4 məhsul kənd təsərrüfatı məhsulu üzrə Xalis İxrac İndeksi əsasında apardığımız hesablamalar bu 4 kənd təsərrüfatı məhsulunun ixrac üzrə müqayisəli üstünlüyünü qoruyub saxladığını göstərdi. Lokallaşma əmsalı əsasında apardığımız hesablamalar isə Azərbaycan pomidoru üçün Moldova, Rusiya, Belarusiya, Ukrayna və Qazaxıstan, fındıq ləpəsi üzrə Rusiya və Gürcüstan xurma üzrə Türkmənistan və Belarusiyanın ixrac bazarları kimi potensial müqayisəli üstünlüyə malik olduğunu, pambıq mahlıcı üzrə isə regional bazarlardan kənar, digər bazarlara yönəldilməsini zəruri olduğunu göstərir.

22. Maliyyə modeli proqramı çərçivəsində apardığımız hesablamalar 2030-cu ilədək ölkənin ÜDM-in 119 milyard manata çatacağını göstərir. Qeyri-neft qaz ÜDM-in ümumi ÜDM-də payının isə 2030-cu ilədək hər il 6 faiz artmaqla 70 faizə və ya 83,3 milyard manata çatması gözlənilir. Belə ki, analitik proqnozlarımız qeyri-neft qaz ixracının

2030-cu illədək 2,8 milyard ABŞ dollarına çatacağını, neft-qaz ixracı üzrə 2030-cu ilədək göstəricilərin isə 14,1 milyard ABŞ dollarına qədər azalmasını göstərir. Belə olduğu təqdirdə, neft-qaz sektorundakı azalma konteksində ÜDM-in artırırılması istiqamətində kənd təsərrüfatı və qeyri-neft qaz ixracının artırılması daha da aktuallaşır. Bu baxımdan da, 2030-cu ilədək həyata keçirilməsi nəzərdə tutulan Milli Prioritetlər sənədinin və digər mühüm tədbirlərin icrası mövcud inkişaf proqnozlarının bir xeyli artması və yaxşılaşmasına səbəb ola bilər. Digər tərəfdən, 15 iyun 2021-ci il tarixində Şuşa şəhərində imzalanmış Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsində Azərbaycan və Türkiyə malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində tədbirlərin görülməsi nəzərdə tutulmuşdur. Bu isə xüsusi ilə də, aqrar sənaye məhsullarının ixrac imkanlarının artırılması və Türkiyə və oradan Avropa bazarlarına çıxış əldə edilməsində müstəsna rol oynayacaqdır. Eyni zamanda Azərbaycan və Türkiyəni birləşdirən və Azərbaycan Respublikasının qərb rayonları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında dəhlizin (Zəngəzur dəhlizi) açılması aqrar ixrac imkanlarının yaxşılaşdırılmasına öz töhfəsini verəcəkdir.

Ölkənin post-pandemiya dövründə qeyri-neft ixracının artırılması baxımından Azərbaycanın uzunmüddətli qeyri-neft ixracı strategiyasının qəbul edilməsi və orada aqrar sahə məhsullarının ixracının artırılmasına xüsusi yanaşmanın olması vacibdir.

**Dissertasiyanın əsas müddəaları aşağıdakı dərc olunmuş məqalələrdə öz əksini tapmışdır:**

1. Проблемы регулирования использования экспортного потенциала Азербайджана в ненефтяном секторе. Статья. Научно-практический журнал «Экономика и предприни-мательство». Москва. ISSN 1999-2300. -2018, № 04 Volume 12. -с.534-538.

2. Azərbaycanda elektron ticarətin inkişafı və onun qeyri-neft ixracına təsiri.“Azərbaycan Aqrar Elmi” elmi-nəzəri jurnal. Bakı. -2018 №5, -s.156-160.

3. Ненефтяной сектор как фактор экономического развития Азербайджана. «Наука и Бизнес: пути развития» научно-практический журнал. Москва. -2018 №11(89), -стр.208-211.

4. Azərbaycanda qeyri-neft ixracının artmasında aqrar sahənin rolu. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 1-2 iyun 2018, -s.313-316.

5. Kənd təsərrüfatı məhsulları ixracının təşviqi məsələsi. AMEA İqtisadiyyat İnstitutunun 60 illik yubileyinə həsr olunmuş mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları, Bakı.18 oktyabr 2018 (13381 işarə), s. 382-386.

6. Qeyri-neft məhsullarının ixracının artırılmasında qoyun yununun rolu. "Maliyyə və uçot" nəzəri və elmi-praktik jurnal. Bakı. ISSN 2222-5358, 2019 № 03, s. 57-65.

7. Azərbaycandan pomidor ixracının mövcud vəziyyətinin qiymətləndirilməsi. "Aqzərbaycan Aqrar Elmi" elmi-nəzəri jurnal. Bakı. ISSN-76419, -2019, №02, -s.138-142.

8. Azərbaycan Respublikasında fındıq ixracının artırılması istiqamətləri. AMEA İqtisadiyyat İnstitutunun "Elmi əsərlər". Bakı. ISSN 2519-49029, -2019, №05, -s.256-264.

9. Qeyri-neft ixracının artmasında ixrac təşviqinin rolu."Maliyyə və uçot" nəzəri və elmi-praktik jurnal. Bakı. ISSN 2222-5358. -2019 № 089, -s.57-65.

10. Azərbaycanda qoyun yunu istehsalının mövcud vəziyyətinin qiymətləndirilməsi. "Kooperasiya" elmi – praktiki jurnal. Bakı.ISSN 2218-91-49, -2019, № 04 (55), -s.166-173.

11. Пути улучшения финансового обеспечения производителей аграрного сектора. «Наука и Бизнес: пути развития» научно-практический журнал. Москва. ISSN 2221-5182, -2019 № 08(98), -стр.97-100.

12. Assessment of agricultural sustainabilityarticle Bulgarian Journal of Agricultural Science, L.Serttaş, M.Gülalıyev, L.Hamidova, S.Abasova, E.Samedova 25 (suppl.2), 2019 № 03 səh. (3316 işarə), p. 80-89.

13. Məhsul istehsalı və ixracının artırılmasının prioritet istiqamətləri. Prof. İ.H.İbrahimovla birlikdə. “Audit” elmi-praktiki jurnal. Bakı, ISSN: 2616-4310, 2019, № 03, cild 25, s.59-68.

14. Текущее состояние экспорта хлопка и хлопковый продукции с перспективы ее развития статья Международный научный журнал. Москва. İSSN 1995-4638, 2019, №06, стр. 36-44.

15. Azərbaycandan üzüm və şərab ixracının mövcud vəziyyəti və artırılması imkanları. “Kooperasiya” elmi – praktiki jurnal. Bakı.ISSN 2218-91-49, -2020. №2 (57), -s.50-57.

16. Alma istehsalının artırılması və ixracının şaxələndirilməsi məsələləri. AR Təhsil Nazirliyinin “Peşə təhsili və insan kapitalı” elmi-praktiki, metodiki jurnalı. Bakı. -2020, №1, cild 3, -s.48-54.

17. Azərbaycan Respublikasının qlobal xurma bazarında yeri: problemlər və perspektivlər. Azərbaycan Memarlıq və İnşaat Universitetinin “Tikintinin iqtisadiyyatı və menecment”elmi-praktik jurnalı. Bakı. -2020 №2 (11), -s.346-353.

18. Tütün məhsullarının istehsalının və ixracının artırılması məsələləri. Azərbaycan Memarlıq və İnşaat Universitetinin “Tikintinin iqtisadiyyatı və menecment”elmi-praktik jurnalı.Bakı. ISSN 2519-2507, -2020 № 3 (12), -s.152-161.

19. Kənd təsərrüfatının dayanıqlı inkişafının qeyri-neft ixracının artmasına təsiri. Aqrar Tədqiqatlar mərkəzi, “Kənd təsərrüfatının iqtisadiyyatı” elmi-praktik jurnal. Bakı, -2020 №4(34), -s.82-87.

20. Ənənəvi olmayan və son dövrlər ixracına başlanılan bitkiçilik məhsullarının təhlili. İnnovasiyalı iqtisadiyyat və menecment jurnalı. Gəncə -2021, №1(5), -s.132-140

21. Bitkiçilik məhsulları ixracında qeyri-ənənəvi sahələrin potensialının reallaşdırılması. Aqrar Tədqiqatlar Mərkəzi, “Kənd təsərrüfatının iqtisadiyyatı” elmi-praktik jurnal. Bakı, -2021 №(35), -s.44-52.

22. Положение АР на глобальном рынке финика: проблемы и перспективы. Международный научный журнал. Москва ISSN 1995-4638, -2021№1, -стр.15-22.

23. Azərbaycanda ipək məhsullarının ixrac potensialının artırılması istiqamətləri. Aqrar Tədqiqatlar mərkəzi, “Kənd təsərrüfatının iqtisadiyyatı” elmi-praktik jurnal. Bakı. -2021, №2 (36), -s.87-92.

24. Non-oil export challenges of oil countries in case of Azerbaijan.«Экономика АПК» международный научный журнал. Украина. 2021 №5, s. 77-90.

25. Исторические особенности и актуальные проблемы повышения экспортного потенциала Азеобайджана. “Вопросы истории”. Москва 2021, №9(2), s. 159-163.

26. Aqrar sektorda məhsul istehsalının və ixracının artırılmasında yeni subsidiya mexanizminin rolu. Azərbaycan Texniki Universitetin keçirdiyi I beynəlxalq elmi-praktik konfransın materialları.18-20 dekabr 2019 II hissə, s.414-418.

27. Экономические аспекты проблемы использования орошаемых земель в Азербайджане. Научный форум: экономика и менеджмент. Сборник статей по материалам LI международной научно-практической конференции. Москва. 2021, №6(51), s.18-23.

28. Инновационные подходы в современной науке. Сборник статей по материалам CII международной научно- практической конференции. Москва 2021, №18(102), стр. 52-59.

Dissertasiya müdafiəsi “16" iyun 2022-ci il tarixində saat 14:00 Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurasının iclasında keçiriləcək..

Ünvan: AZ2000, Azərbaycan Respublikası, Gəncə şəhəri, Atatürk prospekti, 450.

Dissertasiya ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitab-xanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Aqrar Universitetinin rəsmi internet saytında (www.adau.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 16 May 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 29.04.2022
Kağızın formatı: A5
Həcm: 82810 işarə
Tiraj 100